**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKİ DÖVLƏT UNİVERSİTETİ**

**TARİX FAKÜLTƏSİ**

*5509.01 TARİXŞÜNASLIQ, MƏNBƏŞÜNASLIQ VƏ TARİXİ TƏDQİQAT ÜSULLARI İXTİSASI*

# DOKTORANT VƏ DİSSERTANT HAZIRLIĞI ÜZRƏ FƏLSƏFƏ DOKTORU PROQRAMINA QƏBUL İMTAHANININ

# PROQRAMI

**B A K I – 2021**

**Tərtib edənlər**: BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq
və metodika kafedrasının dosenti,
**t.ü.f.d.Səidə Əli qızı,**

BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq
və metodika kafedrasının dosenti,
**t.ü.f.d.Sevinc Binyət qızı Qasımova,**

BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq
və metodika kafedrasının dosenti,
**t.ü.f.d.Aydın Balamirzə oğlu Məmmədov,**

BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq
və metodika kafedrasının müəllimi,
**t.ü.f.d.Elşən Nəsib oğlu Aslanov.**

**Elmi redaktor:** BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq
və metodika kafedrasının müdiri,
**t.e.d., prof.Anar Camal oğlu İsgəndərov.**

# TARİXŞÜNASLIQ

## 1. TARİXŞÜNASLIQ KURSUNA GİRİŞ

Azərbaycan tarixşünaslığı. Vətən tarixinin öyrənilməsi və mütəxəssis tarixçi kadrların nəzəri-metodiki cəhətdən hazırlanmasında onun rolu. Tarixşünaslıq elminin predmeti. Tarixşünaslıq tarixi fikir və tarix elminin tarixidir. Tarixşünaslıq kursun vəzifələri: Azərbaycanda ən qədim çağlardan indiyə qədərki dövrdə tarixi anlayış, tarixi fkir, tarixi bilik və tarix elminin meydana gəlməsi və inkişafı qanunauyğunluqlarını müəyyənləşdirmək. Tarixşünaslıq kursu tarixi biliyin və tarix elminin inkişafı gedişində qazanılan təcrübəni ümumiləşdirən, tarix elminin tarixini öyrənən, insanlarda vətənpərvərlik hisslərini formalaşdıran bir elm kimi. Tarixşünaslıq tarix elminin inkişafının bütün mərhələlərində tarixi konsepsiyaların, cərəyanların, istiqamətlərin, meyllərin mahiyyətini elmi əsaslarla tədqiq edir və konkret elmi nəticələr çıxarır.

Tarixi biliyin meydana gəlməsi, tarixi bilik nümunələrinin toplanması. Tarixi biliyin inkişafı və onun elmə çevrilməsi məsələlərinin açıqlanması. Dünyanın dərk edilməsində, insan təfəkkürünün və dünyagörüşünün inkişafında tarixşünaslığın rolu. Tarixşünaslıq elminin varisliyi. Tarix elmi sistemində tarixşünaslığın yeri. Peşəkar tarixçi kadrların yetişdirilməsində tarixşünaslıq elminin əhəmiyyəti. Tarixşünaslıq elmi ali təhsil sistemində. Tarixşünaslıq elminin başlıca metodoloji prinsipləri - obyektivlik və tarixilik. Azərbaycan tarixşünaslığının inkişaf mərhələləri. Respublikada tarixşünaslıq elminin tədris edilməsinin əhəmiyyəti. Tarixşünaslığın inkişaf mərhələləri və onların əsas istiqamətləri. [47, 48, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 65, 66]

## 2. AZƏRBAYCANDA TARİXİ BİLİYİN MEYDANA GƏLMƏSİ VƏ MƏRHƏLƏLƏRİ

**Azərbaycan tarixinin ən qədim dövrünə dair tarixi fikir və tarixi biliklər**. Tarix haqqında ilk anlayış. Şifahi xalq ədəbiyyatı miflər, əsatirlər, əfsanələr, inamlar, rəvayətlər, dastanlar, tarixi qoşmalar, nəğmələr tarixi keçmiş haqqında biliklərin toplanmasında onların rolu. Yazının meydana gəlməsi və tarixi biliyin toplanmasında onun əhəmiyyəti. Qədim dini kitabların Azərbaycanın qədim tarixinin öyrənilməsində yeri. «Avesta»nın tarixşünaslıq baxımından öyrənilməsi. Azərbaycan tarixinin qədim dövrünə dair tarixi biliklər. Azərbaycan tarixinin antik dövrünə dair tarixi biliklər. Mifik təfəkkürdən praqmatik anlayışa keçid. Fukidid məktəbi. Tarixi biliyin toplanması prosesində tarixi hadisələrin zahiri oxşarlığı və xronoloji ardıcıllığı məsələlərinə xüsusi əhəmiyyət verən, təcrübəni, insanların fəaliyyətini tarixi inkişafın ön planında verən antik tarixşünaslıq tarixi fikrin inkişafında irəliyə doğru atılan bir addım kimi. Antik dövr – yunan və Roma tarixçi, yazıçı, coğrafiyaşünas və səyyahların əsərlərində bu ərazidə yaşayan xalqların dini, mədəniyyəti, əfsanələri, nağılları, etnik tarixi və tarixi – çoğrafiyası. Atropatena və Albaniyanın dövlət quruluşu, şəhərləri, iqtisadi və siyasi həyatı, dini münasibətləri, atropatenalılar və albanların yadelli işğalçılara qarşı apardıqları mübarizənin işıqlandırılması.

**Orta əsrlərdə Azərbaycanda tarixi biliklər**

Erkən orta əsrlərdə Azərbaycanda tarixi biliklər (III-XII əsrlər).

III-VI əsrlərdə Azərbaycanda tarixi biliklər. III-VI əsrlərdə

VII-XII əsrlərdə Azərbaycanda tarixi biliklər. Tarixi biliyin toplanmasında türkdilli abidələrin rolu. «Kitabi-Dədə Qorqud» dastanı türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin, oğuz elinin məişəti, dili, ədəbiyyatı, adət-ənənələri, əxlaq-etik normaları, dini etiqadları, dünyagörüşü, təfəkkür tərzi və s. özündə təcəssüm etdirən misilsiz sənət abidəsi kimi. Azərbaycan xalqının etnogenezi, iqtisadi, ictimai-siyasi quruluşu - ibtidai icma (ana xaqanlığı) quruluşunun dağılması, «hərbi demokratiya»

institutları və ilkin feodal münasibətləri tarixi haqqında anlayışlar, təsərrüfat və mülkiyyət münasibətləri, dastanda adı çəkilən müxtəlif çoğrafi adların Azərbaycan toponimlərinə uyğunluğu. Azərbaycanın islamaqədərki tarixi, erkən islam izləri və xarici düşmənlərə qarşı mübarizəsi haqqında qiymətli məlumatların faktlaşdırıldığı «Kitabi Dədə Qorqud» Azərbaycanın orta əsrlər tarixinin ilk möhtəşəm tarixi bilik nümunəsi kimi.

Musa Kalankatlının «Alban tarixi» əsəri erkən feodal Alban dövlətinin ictimai-iqtisadi, siyasi həyatı, hüquq münasibətləri, etnogenezi, tarixi çoğrafiyası haqqında. M.Kalankatlı müstəqil Alban dövləti və müstəqil alban kilsəsini tərənnüm edən vətənpərvər tarixçi kimi. Müəllifin providensializmi. Əsərin Azərbaycanda tarixi biliklərin formalaşması və inkişafında rolu.

Mxitar Qoş və Gəncəli Kirakosun əsərləri tarixi bilik nümunələri kimi. M.Qoşun «Alban xronikası»nda albanlar, «Alban torpağı», «Alban ölkəsi», IV əsrdən XII əspədək olan alban patriarxları haqqında məlumat, «Gəncəli Xosrovun əzablı həyatı» əsərində səlcuq hakimiyyəti dövründə mövcud olan hərc-mərcliyin pislənməsi və ara müharibələrinə son qoymaq çağırışı. Xristian albanlar üçün özlərinin hüquq sənədlərinin yaradılması zərurətinin meydana çıxması və M.Qoşun «Qanunnaməsi» alban hüquq ədəbiyyatının, alban cəmiyyətinin müxtəlif sinif və təbəqələrinin ictimai və hüquqi münasibətlərini özündə əks etdirən görkəmli abidə kimi. G.Kirakosun «Tarix» əsərində monqolların Cənubi Qafqaza hücumları, Hülakilər dövrünün siyasi məsələləri, vergi siyasəti, bəzi dini məsələlərə dair dəyərli məlumatlar.

Azərbaycan tarixinə dair ərəb müəlliflərinin əsərləri tarixi bilik nümunəsi kimi.

Bu əsərlərdə Azərbaycanın ərəblər tərəfindən istila edilməsi. Xilafətin erməni və alban kilsələri-nə münasibəti. Ərəb və ərəbdilli səyyah, coğrafiyaşü-nas və tarixçilərin əsərlərində torpaq münasibətləri, vergi siyasəti Azərbaycanın iqtisai, siyasi və mədəni həyatının müxtəlif aspektlərdə şərhi.

Nizami Gəncəvi və Xaqani Şirvaninin əsərlə-rində Azərbaycanın tarixi reallıqları. «İsgəndərna-mə» tarixi baxımdan. Azərbaycanın

orta əsr tarixinə dair bilik nümunələrinin toplanmasında, tarixi fikrin inkişafında Nizami Gəncəvinin yeri. N.Gəncəvinin ictimai-siyasi və tarixi görüşləri. Onun görüşlərində dünyəvi tarixə, maarifçiliyə üstünlük verilməsi. Nizami humanizmi və orta əsr Azərbaycan renessansı problemi. [1, 2, 9, 10, 16, 67, 68, 69, 70, 71, 72, 73, 74, 75]

## 3. TARİXİ BİLİYİN ELMƏ ÇEVRİLMƏSI. A.BAKIXANOV VƏ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA YENİ MƏRHƏLƏNİN BAŞLANMASI

Azərbaycan tarixinin yeni, sistemli, elmi tarixçiliyinin əsası nın A.Bakıxanov tərəfindən qoyulması. Tarixşünaslıqda hər hansı bir şəxsiyyətin elmi irsinin öyrənilməsinə kompleks yanaşılma və mövcud metodoloji prinsipə uyğun onu tədqiqata cəlb etmək. "Gülüstan-i İrəm" əsərinin nədən bu qədər əhəmiyyətli olduğunu vurğulamaq. A.Bakıxanovun Azərbaycan tarixşünaslığına gətirdiyi yeniliyin iki səciyyəvi xüsusiyyətini müəyyənləşdirmək. A. Bakıxanovun "Gülüstan-i İrəm"inə qədər Azərbaycan tarixinin necə əks olunmasını izah etmək. Azərbaycanın coğrafi-iqtisadi və siyasi vahid kimi öyrənilməsinə marağın artması və bu sahədə yenilikləri sadalamaq. "Gülüstan-i İrəm" əsərinin Azərbaycan xalqının milli oyanışını və qürurunu ifadə edən, onun dünya tarixindəki ictimai-mədəni rolunu göstərməyə çalışan ilk əsər olduğunu müəyyənləşdirmək.

"Gülüstan-i İrəm"i öz sələfləri ilə müqayisə etməklə, əsərin müsbət və mənfi cəhətlərini sadalamaq və tarixşünaslıqda yerini müəyyənləşdirmək. Onun tarix elminə verdiyi dəyər. A.Bakıxanovun Azərbaycan tarixşünaslığına gətirdiyi yeniliklərdən biri də Azərbaycan tarixinin dövrləşdirilməsidir. A. Bakıxanovdan əvvəl, tarixi hadisələr ancaq illər çərçivəsində verilir, onları doğuran ictimai-iqtisadi və siyasi şərait nəzərə alınmırdı. İlk dəfə Azərbaycan tarixini dövrlərə bölmək şərəfi

A.Bakıxanova nəsib olmuşdur. Əlbəttə, bu gün üçün köhnəlmiş olan bu dövrləşdirmə o zamankı Azərbaycan tarixşünaslığında böyük elmi əhəmiyyətə malik ilk təşəbbüs idi. [9, 17, 32, 33, 34, 77, 84]

## 4. AZƏRBAYCAN TARİXŞÜNASLIĞININ İNKİŞAF İSTİQAMƏTLƏRİ (XIX YÜZİLLİYİN I YARISI- XX YÜZİLLİYİN ƏVVƏLLƏRİ)

Azərbaycan tarixşünaslığının XIX yüzillik və XX yüzilliyin əvvəllərinə qədərki dövrünü xarakterizə etmək. Maarifçi, inqilabçı və milli demokratik istiqamətin nümayəndələrini, onların elmi irsinin və mənsub olduqları istiqamətin inkişafındakı xidmətlərini sadalamaqla, tarixşünaslıqdakı yerlərini müəyyənləşdirmək. XIX yüzilliyin birinci yarısında Rusiyada şərqşünaslıq elminin əsasını qoyan, Azərbaycan maarifçiliyinin inkişafında böyük xidməti olan vətənpərvər mütəfəkkirlərdən A.Bakıxanov, M.Ş.Vazeh, Mirzə Cəfər Topçubaşov və M.Kazımbəyin tarixşünasliqda maarifçi-demokratik istiqamətin nümayəndələrindən olduqlarını vurğulamaqla, onların fəaliyyəti, yaradıcılığının sovet dövrü tarixşünaslığında elmi marağa səbəb olması və Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra bu problemin öyrənilməsinin xüsusi aktuallıq kəsb etməsini aydınlaşdırmaq. Onların elmi irsinin araşdırlmasının aktuallığını izah etmək.

M. Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" (1839), Uyğurlar haqqında tədqiqatlar (1841), "Dərbəndnamə"(1851), "Müridizm və Şamil"(1859), Müsəlman qanunları"(1862), "Bab və Babilər"(1865) kimi əsərlərinin təhlili.

XIX əsr Azərbaycan tarixşünaslığının inkişaf istiqamətlərindən biri də inqilabçı-demokratik istiqamətdir. Bu istiqamətin nümayəndələri Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani və s.-dir. Onların Azərbaycanın xalqının maariflənməsi sahəsindəki gördüyü işlər ilk maarifçilərdən ciddi şəkildə fərqlənir. Əgər XIX əsrin I yarısının

maarifçiləri xalqın maariflənməsinin müxtəlif yollarını göstərirdilərsə, bu dövrün maarifçiləri konkret bu məqsədlərini həyata keçirtdilər. XIX yüzillik Azərbaycan tarixçiliyində yeni bir mərhələ olmaqla yanaşı, həm də dünya elminə adları çox şərəflə çəkilən şəxsiyyətlər bəxş etmişdir. Bunların çoxsaylı sıralanmasında özünəməxsus ideyaları ilə seçilən M.F.Axundzadə fenomeni də öncül yerlərdən birini tutur. Onun "Həkim-ingilis Yuma cavab" , "Molla Ələkbərlə mübahisə" ,"Yek kəlmə haqqında" , "Fehristi-kitab" ,"Nəzm və nəsr haqqında", "Mollayi-Ruminin və onun təsnifinin babından ", "Kritika", "Mirzə Ağanın pyesləri haqqında kritika" "Tənqid risaləsi" , "Babilik əqidələri", "Hekayət", "Con Stüart Mill azadlıq haqqında", "1618-ci ildə "Bağdad yaxınlığında Türkiyə ordusunun vəzyyəti","Xristafor Kolumbun yeni dünyanın kəşfi" kimi əsərləri Azərbaycan tarixşünaslığındakı yerini müəyyənləşdirmək.

Azərbaycanda inqilabçı-demokratların görkəmli nümayəndələrindən olan H. Zərdabi H. Zərdabi universitetdə oxuduğu zaman Rusiyada cərəyan edən ictimai, siyasi hərəkatla da maraqlanır, siyasi dərnəklərdə fəal iştirak edir, XVIII əsrin axırında baş verən Fransa burjua inqilabının tarixini maraqla öyrənirdi. H. Zərdabi öz maarifçi ideyalarını həyata keçirmək üçün yalnız müəllimlik etməklə kifayətlənməmişdi. Məktəb çərçivəsindən daha geniş fəaliyyət sahəsinə çıxmaq arzusu ilə çırpınan H. Zərdabi «Cəmiyyəti-xeyriyyə» təşkil etmək təşəbbüsündə olmuşdusa da, onun bu təşəbbüsü varlılar tərəfindən təqdir edilmədiyi üçün baş tutmamışdı. Lakin bu müvəffəqiyyətsizlik onu ruhdan salmamışdı. O, bundan sonra daha geniş və qüvvətli təbliğat vasitəsi olan teatra müraciət edir. Azərbaycan teatrının yaranması da onun fəaliyyəti ilə bağlıdır.

Öz fəaliyyət dairəsini daha da genişləndirmək üçün H. Zərdabi 1875-ci ildə «Əkinçi» qəzetinin nəşrinə müvəffəq olur.

«Əkinçi» mürtəce Azərbaycan mülkədarları, ruhaniləri və onların hamisi olan çar məmurları əleyhinə çıxdığından çox yaşaya bilməmiş, 1877-ci ildə bağlanmışdı.

Məktəblərin azlığı, ana dilində dərs deyən müəllimlərin olmaması və əlifbanın çətinliyi haqqında H. Zərdabi ilə M. F.

Axundov arasında “Əkinçi” qəzeti səhifəsində gedən söhbətlərə aydınlıq gətirməklə maarifçilikdən inqilabiliyə yüksələ bilmələrini əsaslandırmaq.
Azərbaycan tarixşünaslığının digər istiqaməti milli-demokratik istiqamətdir. XIX əsrin sonu- XX əsrin əvvəllərində Rusiya ziyalılarının azadlıq və müstəqillik ideyaları Azərbaycanda da öz təsirini göstərməkdə idi. Qabaqcıl ziyalıların milli mənlik şüurunun oyanışı, milli dərketmə özünün inkişaf mərhələlərində idi. Məhz bu dövrdə Azərbaycanın istedadlı gəncləri müxtəlif elm ocaqlarında təhsil almağa göndərilmişdi ki, bu da öz nəticəsini göstərirdi. Həmin şəxslər məhz milli-demokratik hərəkatın inkişafında mühüm rol oynayırdılar. Xarici ölkələrdə Avropa elminə yiyələnən ideya qabaqcılları tədricən anlayırdılar ki, böyük amallara, ideyalara nail olmaq üçün birinci növbədə millət özünü dərk etməlidir, qan yaddaşına söykənməklə millətin tarixi, mənəvi dəyərlərini araşdırmaq gərəkdir. Bunun üçün milli məktəblər açmaq, proqram və dərsliklər yaratmaq vacib idi. Bu zaman milli ziyalılar yetişməkdə idi ki, bunlar da öz əsərlərində, mətbu orqanlarındakı çıxışlarında xalqı qəflət yuxusundan ayıldırdılar. Həmin vaxt “milliyyət, hürriyyət, məşrutə və müsavat” ideyaları genişlənirdi. Bu ziyalılar Azərbaycanın milli müstəqilliyini ümumtürk azadlığının tərkib hissəsi kimi dərk edirdilərsə də, siyasi yetkinlikləri tam deyildi. Lakin mövcud quruluşa qarşı mübarizə, islahatçılığı tələb edən milli ziyalılar xalqın ehtiyaclarını çara təqdim etmək iqtidarında idilər ki, bunlardan Ə. Hüseynzadə, Ə. Topçubaşov, M. Ə. Rəsulzadə, Ə. Ağaoğlu və N. Nərimanovun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. [3, 4, 5, 6, 7, 8, 117, 18, 20, 22, 23, 28, 30, 31, 37, 39, 78, 85]

## 5. AZƏRBAYCANIN QƏDIM DÖVRÜNÜN TARIXŞÜNASLIĞI

XX əsrin 20-30-cu illərində, digər elmlərlə yanaşı, Azərbaycanda tarix elminin də müxtəlif problemlərinin tədqiq

edilməsi, əsər və məqalələrin nəşr olunması inkişaf edirdi. Bu sahədə ilk növbədə, XX əsrin əvvəllərində olduğu kimi rus şərqşünas və tarixçilərinin mühüm rolu olmuşdur. Lakin bu dövrdə bu tədqiqatçıları, XX əsrin əvvəllərindən fərqli olaraq bir neçə qrupa ayırmaq olar: **Birinci qrupa** «köhnə» tarixi ənənələrə sadiq qalan şərqşünas alimlərin əsərləri, **ikinci qrupa,** Azərbaycan SSR tarixi-tədqiqat məqsədilə göndərilən tarixçilərin əsərləri, **üçüncü qrupa** isə, Azərbaycana elmi iş dalınca gəlib, oranı özünə «ikinci vətən» seçib, ömrünün axırınadək burada çalışan alimlərin əsərləri. Birinci qrupa daxil olan müəlliflər rus tarixçiləri adlanır və «köhnə» qaydalarla öz elmi fəaliyyətini davam etdirirdilər. İkinci və üçüncü qrupa daxil olanlar isə rus-sovet tarixçiləri adlandırılaraq öz əsərlərini bu dövrdə nisbətən sovet ideologiyası əsasında qururdular. **Dördüncü qrup** isə, sadəcə olaraq Azərbaycan tarixinə toxunan Rusiya müəllifləridir.

Maddi-mədəniyyət abidələri ilə zəngin olan ölkəmizin tarixinin öyrənilməsində arxeoloji qazıntıların mühüm rolu vardır. Antik tarixçilərin və coğrafiyaşünasların, səyyahların ölkəyə xüsusi maraq göstərmələrinin səbəblərindən biri də arxeoloji mədəniyyətin zəngin olması idi. Qədim yunan tarixçisi Böyük Plini “Təbii tarix” adlı əsərində Qafqaz Albaniyasından söhbət açarkən bir çox toponimik adların ünvanını göstərir. XIX yüzillikdə Azərbaycanın tarixinin öyrənilməsinə marağın artdığı bir zamanda 1829-cu ildə Rusiya İmperator Arxeologiya komitəsi arxeoloq A.Yanovskini araşdırmalar aparmaq üçün Azərbaycana ezam edilir. Qafqaz Albaniyasına həsr olunmuş ilk məqalələrdən biri F.Kruzenin 1835-ci ildə nəşr olunmuş məqaləsidir. Sonralar A.Yanovski ilk dəfə olaraq Şimali Azərbaycan ərazisində Böyük Plininin adlarını çəkdiyi toponimlərin tarixi coğrafiyasını dürüstləşdirməyə səy göstərmişdir. O, əldə etdiyi məlumatlara əsaslanaraq 1846-cı ildə “Qədim Qafqaz Albaniyası” adlı məqalə nəşr etdirdi. 1847-1849-cu illərdə qraf Vorontsovun göstərişi ilə məşhur şərqşünas V.N.Xanıkov “Müsəlman ruhanilərinin ali təriqətinin vəziyyəti haqqında layihə”si, 1862-ci ildə şərqşünas, səyyah A.Berje isə Muğan düzündəki yerüstü tarixi abidələr haqqında verdiyi məlumatlar, A.Dorn, İ.Şopenin tədqiqatları da

əhəmiyyətlidir. XIX yüzilliyin əvvəllərindən etibarən rus arxeoloqları ilə yanaşı, digər əcnəbi həvəskar arxeoloqlar da Azərbaycanın maddi mədəniyyətinə maraq göstərmişlər.
Azərbaycanın qədim tarixinin öyrənilməsi rus elminin nümayəndələri ilə sıx əməkdaşlıq şəraititndə gedirdi və N.Marr, V.Bartold, İ.Meşşaninov, T.Passek, B.Latınin, A.Miller, B.Miller, Y.Paxomox, V.Sısoyev kimi dünyaca tanınmış tədqiqatçıların milli kadrların yetişməsi prosesinə mühüm təsiri olmuşdur. Bunlardan: R.İsmayılov, D.Şərifov, Ə.Ələkbərov, İ.Cəfərzadə, S.Qazıyev, O.Həbibullayev, M.Hüseynov, C.Rüstəmov. F.Muradova, İ.Nərimanov, İ.Babayev, F.Osmanov, H.Ciddi, A.Nuriyev, F.İbrahimovun adlarını çəkə bilərik. 1953-cü ildə S.N.Zamyatin ilə birlikdə Azərbaycanın Şamaxı, Mərəzə və Qazax rayonları ərazisində daş dövrü abidələrini öyrənmək məqsədi ilə arxeoloji kəşfiyyat işləri aparılması, 1881-ci ildə Tiflisdə V arxeoloji qurultayda qəbul olunmuş Azərbaycanda daş dövrü abidələrinin olmadığı haqqında qərarın əsassız olduğu elmi faktlarla sübuta yetirilməsi, 1956-cı ildə Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyində M.Hüseynovun rəhbərliyi altında paleolit arxeoloji ekspedisiyası təşkil olunmuşdur.Onun rəhbərliyi altında 1956-1958-ci illərdə Qazax rayonu ərazisində olan Damcılı mağara düşərgəsində arxeoloji qazıntı işləri aparılmış və paleolit mədəniyyətinə aid zəngin maddi-mədəniyyət nümunələri tapılmasının əhəmiyyətinin vurğulanması. [40, 41, 42, 43, 67]

## 6. AZƏRBAYCANIN QƏDIM DÖVLƏTLƏRININ TARIXŞÜNASLIĞI

XX əsrin 60-90 illərində Azərbaycan tarixşünaslığında Azərbaycanın ilk dövlət təsisatı kimi araşdırılması məsələsi diqqət mərkəzində duran əsas məsələ idi. 30-cu illərin ortalarından 50-ci illərin sonlarına qədərki tarixi ədəbiyyatda ilk dövlət təsisatının Midiya çarlığı olduğu açıqlanmışdır. Midiya dövləti probleminin dərin araşdırıcısı İqrar Əliyev olmuşdur. O,

Azərbaycanda ilk dövlət birliyi kimi Midiyanın təşəkkülünə dair 1956-cı ildə «Azərbycanın qədim tarixi oçerki» adlı məqalələr toplusunda bunu əsaslandırmış və bu problemlə bağlı ilk konsepsiyanı ümumiləşdirilmiş kitabda göstərmişdir. 60-cı illərdən etibarən Azərbaycan tarixinin monoqrafik istiqamətdə öyrənilməsi ilə bağlı burada ilk qədim dövlət olan Manna çarlığının müstəqil bir problem kimi öyrənilməsinin əsası qoyuldu. 70-ci illərdə Solmaz Qaşqayın «Manna çarlığının tarixi» monoqrafiyasında bu dövlət haqqında tarixşünaslıqda ilk söz deyilir. Tədqiqatçı apardığı elmi araşdırmalara əsaslanaraq qeyd edirdi: «Manna dövləti suveren dövlət olmuş, onun başında qeyri-məhdud hüququ olan çar dururdu. Başqa qədim quldar dövlətlərdə olduğu kimi burda da çarın hüququ, hərbi demokratiya quruluşunun qalığı olan və əsasən qəbilə başçılarından təşkil edilən ağsaqqallar məclisi tərəfindən məhdud edilirdi

Mahmud İsmayılov Manna çarlığının qüdrətindən, onun coğrafi şəraitindən, siyasi quruluşundan danışarkən, orada tayfa qalıqlarının güclü olduğundan da bəhs edirdi. Tarixşünaslıq araşdırmaları nəticəsində Mahmud İsmayılov Manna dövlətinin tərkibində Naxçıvan ərazisinin olduğunu, ümumiyyətlə dövlətin ərazisinin Araz çayının şimalına qədər uzandığı fikrini açıqlayırdı, Teymur Bünyadov və Qiyasəddin Qeybullayev də mannalıların həyatında xüsusi rol oynamış əkinçiliyin, yarımköçəri maldarlığın, sənətkarlığın, atçılıq təsərrüfatının mühüm rol oynadığını qədim qaynaqları və arxeoloji abidələri müqayisəli təhlil etməklə sübuta yetirmişdir.

Ciddi mənbələrə arxalanan tarixçilərimiz – İ. Əliyev, Y. Yusifov, Q. Qeybullayev, S. Əliyarlı, M. İsmayılov belə qənaətə gəlirlər ki, o dövr üçün Manna dövləti dövlətçilik gücünə malik idi və o böyük qoşun gücünə arxalanaraq tez bir zamanda İran yaylasını tutdu və kiçik çarlıqları özündə birləşdirdi.

Qədim Azərbaycan ərazisində ilk dövlətlər problemini araşdıran bəzi tarixçilər son tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmişlər ki, bu ərazidə ilk dövlət quruluşu e. ə. III minilliyin I yarısında təşəkkül tapan Aratta dövləti olmuşdur.

Azərbaycan tarixşünaslığında bu fikir yeni və dəyərlidir. Y. Yusifov müxtəlif mənbələri, onomastik –dilçilik materiallarını, Şumer dastanlarını təhlil etməklə Azərbaycanın cənub torpaqlarında, Urmiya gölünün cənub, cənub-şərqində Aratta dövlətinin yarandığını qeyd edir.

XX yüzilliyin 80-90-cı illərində Azərbaycan tarixşünaslığında Atropatena dövlətinin tarixşünaslığına yeni aspektdən yanaşıldı. İ. Əliyevin «Atropatena tarixinin oçerki.» (B. , 1989), A. Fazilinin «Atropatena, e. ə. IV- eranın VII əsri» (B. , 1992) əsərləri problemin öyrənilməsi baxımından əhəmiyyətlidir. A. Fazilinin «Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında», «Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında», Tofiq Məmmədovun «Albaniya və Atropatena (qədim erməni mənbələrində)», K. Əliyevin, F. Məmmədovanın, Z. İ. Yampolskinin, Ə. S. Sumbatzadənin Atropatenanın bir sıra problemlərinə dair tədqiqatları işıq üzü görmüşdür. Onların əsərlərində Atropatenanın Manna dövlətinin varisi olması, tarixi coğrafiyasının mövcudluğu, onların dini mənsubiyyəti, zərdüştlük, Məzdək hərəkatı və s. geniş planda tədqiq edilmişdir.A. Fazili İran tarixşünaslığına və farsdilli qaynaqlara xüsusi yer vermişdir. Əhəmənilər dövlətinin süqutu ilə e. ə. IV əsrin 20-ci illərində Azərbaycanın cənubunda Atropatena dövləti yarandı. Eyni vaxtda Azərbaycanın şimalında Albaniya dövləti meydana gəldi.
80-90-cı illərdə Azərbaycan tarixinə dair yazılan ümumiləşdirilmiş kitablarda – S. Əliyarlının «Azərbaycan tarixi», Z. Bünyadovun, Y. Yusifovun «Azərbaycan tarixi», «Qədim Şərq tarixi», M. İsmayılovun «Azərbaycan tarixi» əsərlərində Atropatenanın xalqımızın tarixi taleyində oynadığı rol və yer müəyyən edilmişdir. Y. Səfərovun «Qədim Azərbaycan. Nə bilirik» kitabında bu məsələyə xüsusi fəsil həsr edilib. [1, 2, 40, 41, 42, 43, 67, 69]

## 7. ETNOGENEZ PROBLEMİ VƏ ONUN TARİXŞÜNASLIĞI

Azərbaycan tarixşünaslığında bu problemin günümüzə qədər kompleks şəkildə öyrənilməməsinin səbəblərini aydınlaşdırmaq, etnogenez» anlayışının əsas komponentlərini, etnogenetik prosesin əsas tipləri, bu məsələnin xarici ölkə tarixşünaslığında öyrənilməsi səviyyəsinə diqqət çəkməklə, xalqımızın soykökü məsələsinə yenidən baxmaq. Bu problemlə bağlı vahid fikrin olmamasının əsas amili kimi tarixçi, antropoloq, dilçi, etnoqraf alimlərin bu sahədə mülahizələrinin yekdil olmamasının müəyyənləşdirmək. İran tarixçisi Əhməd Kəsrəvinin konsepsiyasının bu günə kimi bəzi tədqiqatçılar tərəfindən dəstəkləndiyini və azərbaycan xalqının XI əsrdə gəlmə səlcuqlar tərəfindən zorla yerli iranlıların türkləşməsi prosesinin baş verdiyini təsdiqləyirlər. Ziya Bünyadovun 1989-cu ildə nəşr olunan «Azərbaycan VII-IX əsrlərdə» adlı monoqrafiyası, M. Baharlı (Vəliyev), A. Ələkbərov, M. Rəfilinin, K.Əliyev, S. Aşurbəyli, T. Hacıyev, F. Cəlilov, Q. Qeybullayev M. İsmayılov, S. Əliyarov, Y. Yusifov, V. Qukasyan Azərbaycanda türk dilli etnosların yaşaması məsələsini müxtəlif baxımdan araşdırmalarını tədqiqata cəlb etmək. ışlar. İlk üç cildlik Azərbaycan tarixi əsərindən başlayaraq, bütün ümumiləşmiş əsərlərdə Azərbaycan xalqının formalaşması, etnogenez prosesinin açıqlanması sahəsində elə də mühüm iş görülmədiyini açıqlamaq. (

Qiyasəddin Qeybullayev bu problemin öyrənilməsi sahəsində öz sələflərindən əsaslı surətdə fərqlənir. Onun «Qarabağ etnik tarixinə dair» (Bakı, 1980), «К этногенезу азербайджанцев» (том. 1. B. , 1991), «Qədim türklər və Ermənistan» (B. , 1992), «Azərbaycan türklərinin təşəkkülünə dair» (B. , 1994) adlı kitablarında xalqımızın qədim türk mənşəli olması barəsində xeyli, külli miqdarda material, faktlar gətirilmiş, mülahizə söylənmişdir. İ. Əliyevin son dövrlərdə nəşr olunmuş «О некоторых вопросах этнической истории азербайджанского народа» (B, 2002) əsərinin də soykök məsələsinin araşdırılmasında mühüm rolu vardır. [1, 2, 13, 40, 41, 42, 43, 67, 69]

## 8. AZƏRBAYCANIN ERKƏN FEODAL DÖVLƏTLƏRİNİN TARİXŞÜNASLIĞI

Azərbaycan tarixşünaslığında ən vacib və az öyrənilmiş dövrlərdən biri də orta əsrlər dövrü və onun əsas feodal dövlətlərinin tarixşünaslığı problemidir. Çünki IX əsrin II yarısı-XI əsrlər Azərbaycan tarixini tədqiq etmək üçün dövrün bütün məsələlərini əhatə edən yazılı mənbələr azlıq təşkil edir. Xülafət dövrünün tarixçiləri Azərbaycan haqqında yalnız epizodik məlumatlar vermişlər. Bu dövrə aid yerli salnaməçilərin əsərləri də hələlik bəlli deyildir. Problemlə bağlı məlumatlar ərəb, fars, erməni, gürcü, suriya və türk dillərində başqa mövzulara həsr edilmiş əsərlərdə pərakəndə halda çatıb. Məhz bu dövrün öyrənilməsinə ilk təşəbbüs göstərən, problemi konseptual şəkildə araşdıran Məhəmmədəli Şərifli olmuşdur. O zəngin mənbələrdən istifadə etməklə problemin tarixşünaslığına aid monoqrafiya yazmış, ərəb dilində yazılmış tarixi-coğrafi əsərləri təhlil etmişdir. Bunlardan bir neçəsinin şərhinə keçməyimiz məqsədəuyğundur. Bu mənbələrin içərisində əl-Bəlazurinin “Kitab fütuh əl-büldan”, əl-Yaqubinin “Kitab əl-büldan”, ət-Təbərinin “Tarix ər-rüsul və- l-mülük” (Fransız Juze tərcümə etmişdir), əl-Həmədaninin “Kitab əl-büldan”, Əbülfərəc Küdamənin “Kitab əl-xərac”, ibn Havqəlin “Kitab əl-məsalik və-l-məmalik” əsərlərində Saci və Salari dövlətləri haqqında, xilafətin tənəzzül etdiyi dövrdə yaşamış əl-Məsudinin “Müruc əz-zəhəb və məadin əl-cəvahir” əsərində Şirvanşah Məzyədilər dövləti və Məzyədilərin bəzi nümayəndələri haqqında ziddiyyətli də olsa məlumat verilmişdir. Rusların Xəzər yürüşləri haqqında da məlumat var. O dövrün Azərbaycan tarixi üçün ən yaxşı məlumatlar əl-Müqəddəsinin “Əhsən ət-təkasim fi-mərifət əl-əkalim” adlı əsərində verdiyi məlumatlardır. Ümumtarix səciyyəsi daşıyan “Əl-kamil fi-t-tarix” əsərinin müəllifi ibn əl-Əsirin də adını xüsusi çəkmək lazımdır.

Azərbaycan tarixinin orta əsrlər dövrünün tədqiqində

Lütfüllah Münəccimbaşının XVII əsrdə ərəbcə yazdığı "Came əd-Düvəl" əsərinin də dəyəri böyükdür. Bu əsərdə Şirvanşah Məzyədilər, Şəddadilər, Dərbənd əmirlərinin X-XI əsrlərdəki siyasi tarixinə dair zəngin məlumatlar vardır. Məhz V. Minorski iki əsərini salnamənin "Şəddadilər", "Dərbənd və Şirvan" fəsillərinin nəşrinə həsr etmişdir. Bu mənbə Şirvanşah və Şəddadilər dövrünün öyrənilməsi üçün ilkin mənbə rolunu oynayır. Bu dövrə aid farsdilli qaynaqlar üç qismə ayrılır: birinci qismə müəllifi bəlli olmayan "Hüdud əl-aləm", Məhəmməd Bəkranın "Cahannamə", Həmdullah Qəzvininin "Nüshət əl-qülub" əsərləri daxildir.

Xarici tarixşünaslıqda H. Amedroz "Salarilər", D. Ross "Şəddadilər", V. Minorski "Qafqazın tarixi haqqında etüdlər", "Deyləmilər", "Şirvan və Dərbəndin tarixi" adlı əsərlərində bu dövlətlər haqqında geniş məlumatlar verirlər. Xarici ölkə tarixşünaslığında Kəsrəvi Təbrizi və V. Minorskinin əsərləri xüsusi fərqlənir. Kəsrəvi Təbrizinin "Şəhriyarani-qomnam" adlı əsərində (1830, Tehran) Salari, Rəvvadi və Şəddadilərdən bəhs edilir. İlk dəfə olaraq Rəvvadilər sülaləsi haqqında zəngin məlumat verilir. Müəllif bu sülalə üzvlərinin tarixi və şəxsiyyəti ilə maraqlandığından iqtisadi, ictimai və dövlət quruluşlu məsələlərini kənarda qoyur. V. Minorskinin Şəddadilər, Şirvanşahlar haqqında verdiyi məlumatlar bu sahənin öyrənilməsində böyük uğur sayıla bilər. Lakin heç bir tarixçi feodal dövlətlərinin tarixini konseptual şəkildə tədqiq etməmişdir. B. Dorn Şirvanşahlar tarixini öyrənərkən 24 əlyazmadan istifadə etmişdir. O, Şirvanşahlar tarixini üç dövrə bölür: birincisi, VI əsrin ortalarından XI əsrin ortalarına qədər; ikincisi XI əsrin axırlarından-XV əsrin başlanğıcına qədər; üçüncüsü XV-XVI əsrlər. Bu təsnifat Şirvanşahların iqtisadi-ictimai quruluşuna və sülalələrin hakimiyyəti dövrünə əsaslanırdı. Lakin ilk cəhd olduğundan bunu dəyərləndirmək vacibdir ki, o ilk dəfə olaraq 1840-cı ildə belə bir tədqiqat əsərini yazmışdır. 1937-ci ildə Juze Məzyədilər-Şeybanilər haqqında məqalə yazır. 44 səhifəlik məqalədə Məzyədilər haqqında cəmi iki səhifə məlumat verir. Şirvanşahlar dövlətinin tarixi ilə Y. Paxomov, Ə. Əlizadə də məşğul olmuşlar. «Azərbaycan tarixinin müxtəsər kursu» adlı

kitabında Y. Paxomov Şirvanşah Kəsranilər sülaləsi haqqında əlavə etdiyi oçerklərdə Məzyədilər haqqında olduqca az məlumat verir.

Rəvvadilər dövlətinin Azərbaycan tarixində işıqlandırılması ilk dəfə 1952-ci ildə Məhəmməd Şərifli tərəfindən üç cildlik Azərbaycan tarixinin birinci cildini çapa hazırlayarkən müxtəsər şəkildə verilmiş və 1957-ci ildə Rəvvvadilər dövləti haqqında xüsusi məqalə nəşr etdirmişdir. Orta əsr feodal dövlətlərinin tarixinin öyrənilməsi sahəsində Məhəmməd Şərifli, Sara Aşurbəyli, Ziya Bünyadov, Yaqub Mahmudov, Oqtay Əfəndiyev, Şahin Fərzəliyevin xidmətləri böyükdür. Sara Aşurbəyli V. Dorn və Y. Paxomovdan sonra ilk dəfə elm aləminə məlum olmayan üç Şirvanşahın adlarını müəyyənləşdirmiş və digər hökmdarların hakimiyyət illərini III Mənüçöhr, I Axsitan, I Xəlilullahın hakimiyyət illəri dəqiqləşdirilmiş, II Fərrux Yasar, III Axsitan və Keykabus ibn Axsitanın adları dəqiqləşdirilmişdir. O, həmçinin, Şirvanşahlar dövlətinin tarixini də dövrləşdirmişdir. Azərbaycanda erkən orta əsrlərdə yaranan feodal dövlətlərindən biri, daha uzunömürlü dövlət kimi tarixə düşmüş Şirvanşahlar dövlətidir. Cənubi Qafqaz, eləcə də Yaxın Şərqdə ən böyük feodal dövlətlərindən olan Şirvanşahlar dövlətinin Azərbaycan tarixşünaslığında öyrənilməsi çox vacib problemlərdən biridir. Bu dövlətin öyrənilməsinə maraq hələ XIX əsrdə yaranmış və B. Dornun təşəbbüsü ilə meydana çıxmışdır. Lakin tarixçi alimlər bu dövlətin hərbi tarixinə daha çox diqqət yetirdiklərindən problemə konseptual yanaşmamışlar. Şirvanşahlar dövlətinin mövcudluğuna dair mənbələrin öyrənilməməsi və bu dövlətdə hakim olan sülalələrin hökmranlığına dair faktların pərakəndə şəkildə olması problemin öyrənilməsini bir qədər ləngitmişdir. Lakin bu sahədəki boşluq V. F. Minorskinin, türk alimi Münəccimbaşının əsərlərindən istifadə nəticəsində doldurulmuşdur. Sonradan Z. M. Bünyadov və V. M. Beylisin ərəbdilli məxəzləri toplamaqla çoxsaylı mənbələri araşdırması nəticəsində Şirvanşahlar dövlətinin yaranmasını tədqiq etmək işində irəliləyiş olmuş və bu dövlətin sosial-iqtisadi, siyasi və mədəni tarixi tədqiq edilmişdir. 1983-cü və 1997-ci illərdə Sara

Aşurbəylinin bu problemin tədqiqi nəticəsində «Şirvanşahlar dövləti» adlı əsərinin meydana gəlməsi, burada mövcud olan sülalələrin hökmranlığı geneologiyası açıqlanmışdır.

Elmi ədəbiyyatda Şirvanşahlar dövlətinin tarixi dörd dövrə bölünmüşdür.

1. İlk Şirvanşahlar; 2. Şirvanşah Məzyədilər sülaləsi; 3. Şirvanşah Kəsranilər sülaləsi; 4. Şirvanşah Dərbəndilər sülaləsi.

İlk dəfə olaraq V. F. Minorski Şirvanşahlar dövlətinin fasiləsiz olaraq 799-cu ildən 1538-ci ilədək mövcud olduğu faktını irəli sürmüşdür. O, Şirvanşahlar dövlətinin paytaxtı olan Şamaxının bütün Azərbaycanın mədəniyyət mərkəzi olduğunu və eləcə də onun həm maddi, həm də mənəvi mədəniyyət tarixinə dair məsələləri işıqlandırmışdır.

B. Dorn və Y. A. Paxomov kimi S. Aşurbəyli də elm aləminə məlum olmayan bir neçə Şirvanşah hökmdarlarını aşkar etmiş (üç) və onların eləcə də digər hökmdarların hakimiyyət illərini dəqiqləşdirmişdir.

Şirvanşahlar dövlətinə, onun yaranması tarixinə diqqət yetirən alimlərdən biri də Z. Bünyadov olmuşdur. 1989-cu ildə nəşr olunmuş «Azərbaycan VII-IX əsrlərdə» adlı əsərində Azərbaycan və xüsusilə Arran (Şirvan) tarixində ərəb Rəbiə tayfasının Şeyban qəbiləsi nümayəndələrinin böyük yer tutduğundan, əvvəlcə yarımmüstəqil əmirliyin, sonralar isə müstəqil Şirvanşahlar dövlətinin yaradılmasından bəhs edir. Erkən feodal sülalaələrinin hakimiyyətdə olmasına dair konseptual əsər olan M.Şəriflinin xidmətlərinin dəyərləndirilməsi. [42, 43, 44, 45, 67, 69]

## 9. QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTİNİN TARİXŞÜNASLIĞI

XV yüzillik Azərbaycan tarixində mühüm dönüş dövrüdür. Bu dövr xalqımızın yadelli əsarətindən azad olması, müstəqil dövlətçilik ənənələrinin bərpası kimi tarixə daxil olmuşdur. Azərbaycanda Teymurun ağalığına son qoyulması və yerli dövlətçilik ənənələrinin bərpasında Qaraqoyunlu tayfalarının əvəzsiz xidməti olmuşdur. Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu

və Səfəvilər dövlətlərinin yaranması və onların fəaliyyəti nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sisteminə cəlb olunmuş , onun Qərbi Avropa və Şərq ölkələri ilə qarşılıqlı əlaqələri daha da güclənmişdir.

Vətən tarixşünaslığında bu dövlətlərin siyasi, ictimai, iqtisadi tarixi ətraflı şəkildə tədqiq olunmasında Azərbaycan tarixşünaslığında bu dövlətlərin tarixinin tədqiqinə XX əsrin 40-cı illərində İlya Petruşevski tərəfindən başlanılmışdır. Onun XV əsr Azərbaycan dövlətlərinə dair əsərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixinə diqqət yetirilmişdir. Bu dövlətlərin ictimai, iqtisadi və siyasi tarixi Cəfər İbrahimovun da diqqətini çəkmiş və onun «Qaraqoyunlu dövləti», «Azərbaycanın XV əsr tarixinə dair oçerklər», «Феодальные государства на территории Азербайджана XV в. », M. Abidovanın «Государство Аккойунлу в Иране во второй половине XV в. », Y. Mahmudovun «Öyrənilməmiş səhifələr», «Взаимоотношения государства Аккойунлу и Сефевидов с Западно-европейскими странами», «Azərbaycan diplomatiyası», Şahin Fərzəliyevin «Azərbaycan XV-XVI əsrlərdə», «Azərbaycan və Osmanlı imperiyası», Oktay Əfəndiyevin «Azərbaycan Səfəvilər dövləti (1961;1993)», S. Məmmədovun, M. Seyfəddininin də bu problemin tədqiqində mühüm rolu vardır. Adı çəkilən əsərlərdə bu dövlətlərin mənşəyi məsələsinə diqqət çəkilməmiş və problemin türk tarixində tədqiqinə yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra imkanlar açılmışdır. Türkiyədə respublika qurulduqdan sonra Mustafa Kamal Atatürkün təşəbbüsü ilə 1931-ci ildə təsis edilmiş «Türk tarixi qurumu»nun fəaliyyəti ilə bu problemin öyrənilməsinə geniş imkanlar açılmışdır. Cəmiyyətin Akçuranın sədrliyi ilə Ə. Cəfəroğlu, A. Kurat, Z. V. Toğan bu problemin öyrənilməsində yaxından iştirak etmişlər. Problemin türk tarixşünaslığının tədqiqinə 20-ci illərdən başlanmışdır. Rza Nurun 12 cildlik əsəri istisna olmaqla 4-cü cildində Qaraqoyunlu, Ağqoyunlu dövlətinə yer verilmişdir. 30-cu illərdə Əli Kəmali, Əbdürrəhim Şərif bəyin əsərlərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bəzi məsələlərinə toxunulmuşdur. Türk tarixşünaslığında problem ilk

dəfə Uzunçarşılının monoqrafiyasında xüsusi tədqiqat obyekti kimi araşdırılmışdır. Onun «Anadolu bəylikləri» və «Ağqoyunlu» əsəri sonrakı araşdırmalar üçün əsas rol oynamışdır. 40-cı illərdə türk tarixçisi Yınancın «Ağqoyunluluar», həm də Qaraqoyunlu Cahan şaha həsr etdiyi «Cahan şah» əsəri nəşr olundu. Əsərdə müəllif Əbu Bəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsərinə daha geniş yer vermişdir. Z. V. Toğan «Ümumi türk tarixinə giriş» adlı əsərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixinə diqqət yetirmişdir. 40-50-ci illərdə F. Sümer, Kirzıoğlu Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi, onların Azərbaycanda məskunlaşması, siyasi tarixinin öyrənilməsinə diqqət yetirmişlər. 50-60-cı illər türk tarixşünaslığı problemin işıqlandırılması baxımından daha zəngindir. [38, 71]

## 10. SƏFƏV DÖVLƏTININ TARIXŞÜNASLIĞI

XVI əsr ümumdünya tarixində yeni mərhələnin başlanması ilə Qərbi Avropa ölkələrinin əksəriyyətində milli ərazilərin siyasi birləşməsi və mərkəzləşmiş dövlətlərin təşəkkülü prosesi başa çatdı və bu dövrdə Şərqdə də mərkəzləşmiş dövlət yarandı – bu Azərbaycan Səfəvilər dövləti idi. Qərb tarixçiləri XVI əsr Səfəvilər dövlətinə əsassız olaraq İran dövləti kimi baxmış və indi də buna davam edirlər. Məhz Azərbaycan tarixçiləri qədim dövrlərdən etibarən Azərbaycan ərazisində baş vermiş tarixi proseslərin axarını təhlil etməklə, Səfəvi dövlətinin yaranmasında və inkişafında Azərbaycan xalqının rolunu aşkara çıxarmışlar. Səfəvilər dövlətinin tarixinə dair çoxsaylı farsdilli qaynaqlar mövcuddur. Bu mənbələr aşağıdakı kimi təsnif edilir:Birincisi, Soltan İbrahim əl-Əmininin «Fütuhat-i şahi», naməlum tarixçinin yazdığı «Tarix –i Şah İsmayıl Səfəvi», "Təzkireyi-şah Təhmasib", Əli Zeynalabdinin «Təkmilat əl-əxbar», Budaq Qəzvininin «Cəvahir əl-əxbar», Qazi Əhməd Quminin «Xülasət ət-təvarix», Həsən bəy Rumlunun «Əhsən ət-Təvarix», İsgəndər bəy

Münşinin «Tarix-i aləm araye Abbasi», Şərəfxan Bidlisinin «Şərəfnamə» əsərləri həmin dövrü öyrənmək üçün ilkin mənbə olsa da, həm də həmin dövrün mühüm tarixi əsərləri olmuşdur. Farsdilli sənədlərin toplanması və nəşri sahəsində Q. Musəvinin də üç məcmuəsi nəşr olunmuşdur. Həmçinin bununla bağlı Q. Horstun və İ. Obenin də nəşrlərini qeyd edə bilərik. Ağqoyunlu və Səfəvi hökmdarlarının 23 fərmanı Britaniya muzeyinin farsdilli sənədlər məcmuəsinə daxil olmuş və 1959-cu ildə H. Busse tərəfindən nəşr olunmuşdur. 1965-ci ildə həmçinin V. Martin Səfəvilərin cənub vilayətindəki bəxşiş torpaqlara aid yeddi fərmanını dərc etdirmişdi. İran tarixçisi Əbdül Hüseyn Nəvainin I Şah İsmayıl və I Şah Təhmasib dövrünə aid 2 məcmuədən ibarət sənəd və məktublarını da dərc etdirmişdir.

Keçmiş sovet tarixçiləri Səfəvilər dövlətinin sosial-iqtisadi tarixi məsələlərinin tədqiq edilməsində müəyyən uğurlar qazanmışlar. Bu baxımdan İ. Petruşevskinin xidmətləri böyükdür. O, Səfəvilər tarixini dörd dövrə bölür:

I dövr – XIII əsrin sonlarından 1447-ci ilə qədər davam edir. Bu dövrdə Səfəvilər şiəliyi yayır və xalq kütlələrinin anti-feodal hərəkatına başçıılq etməyə çalışırlar. Lakin bu dövrdə Səfəvilərin hakimiyyəti Ərdəbil mahalından kənara çıxmır.

II dövr – 1447-1501-ci illəri əhatə edir. Bu dövrdə Səfəvilər özlərini müstəqil ruhani feodalları kimi təqdim edir və Azərbaycanın siyasi həyatında mühüm rol oynayırlar.

III dövr – 1501-1587-ci illər. Həmin illərdə Səfəvi hakimiyyəti yaranır, möhkəmlənir və onlar Azərbaycanın iqtisadi-siyasi, mədəni həyatında mühüm rol oynayır.

IV dövr – 1587-1736-cı illəri əhatə edir. Mərkəz köçürülür, dövlətin mahiyyətində müəyyən dəyişikliklər yaranırdı.

İ. Petruşevskinin Azərbaycanda son orta əsrlərdə feodal münasibətlərinə həsr olunmuş monoqrafiyasında Səfəvilər dövlətində feodal torpaq təsisatının hakim sinif və onun təşkilatı quruluşunun dəqiq və mükəmməl xarakteristikası verilmişdir. Səfəvilərdə torpaq mülkiyyəti məsələləri B. Zaxoderin və N. Filrozenin əsərlərində tədqiq edilmişdir. Səfəvilər dövləti şəhərlərinin sosial inkişaf tarixinin öyrənilməsində S.

Aşurbəylinin, A. Novoseltsevin, M. Heydərovun, K. Kutsiyanın əsərləri də əhəmiyyətlidir. Səfəvilər dövlətinin tarixi haqqında ümumiləşdirilmiş "Azərbaycan tarixi" dərsliklərində də geniş məlumat verilmişdir.Səfəvilər dövlətinin xarici siyasətinə, daxili inkişaf tarixinə dair bir sıra məsələlər Ə. Şahmalıyevin, P. Petrovun, Ə. Rəhmaninin, A. Novoseltsevin, Ə. Hüseynovun, B. Əhmədovun əsərlərində işıqlandırılmış, Y. Paxomovun, Ə. Həsənzadənin, M. Nemətovanın, Ə. Rəcəblinin əsərlərində mövzuya dair epiqrafik və nümizmatik materiallar öz əksini tapmışdır.

Sovet tarixşünaslığında Səfəvilərin etnik tarixinə dair əsərlər də mövcuddur ki, bu sahədə V. V. Bartoldun və A. Krımskinin rolunu qeyd etməliyik. Məhz bu tarixçilər ilk dəfə Səfəvilərin türk mənşəli olması fikrini irəli sürmüşlər. Müasir İran tarixşünaslığı tarixi faktlarla hesablaşmaq məcburiyyətində qalaraq, bu dövlətdə türkdilli etnosun rəhbər rol oynadığını təsdiq edirlər (xüsusilə Nəsrulla Fəlsəfi). Müasir türk tarix elminin ən böyük nümayəndələrindən biri də Faruk Sümerdir. Sonuncu monoqrafiyasında Səfəvilər dövlətinə «İran milli dövləti» kimi baxmaq istəyənlərə qarşı çıxmışdır. Lakin onun

O. Əfəndiyevin 1993-cü ildə nəşr olunmuş «Azərbaycan Səfəvilər dövləti» əsəri Azərbaycan tarixşünaslığındakı boşluğu doldurur. İ. Petruşevskinin «Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. », həmçinin «Иранские источники по истории Азербайджане XVI-XVIII вв.», «Книга Орудж-бека Байата – Дон Жуана Персидского.», Q. Musəvinin «Orta əsr Azərbaycan tarixinə dair orta əsr sənədləri», həmçinin «Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədləri», C. İbrahimovun «Səfəvilərin Ərdəbil hakimiyyəti tarixinə dair», Minorskinin «Şirvan və Dərbəndin tarixi», F. Sümerin «Səfəvi dövlətinin kuruluşu ve gelişməsində anadolu türklərinin rolu» əsərləri də əhəmiyyətlidir.

Səfəvilər dövləti həm mənşəyi, həm ərazisi baxımından Azərbaycan dövlətidir və dövlətçiliyimizin inkişafında mühüm rolu olmuşdur. [13, 16, 71]

## 11. AZƏRBAYCAN XANLIQLARININ TARİXŞÜNASLIĞI

Müasir dövrdə Azərbaycanın xanlıqlar dövrünün və xanlıqların tarixşünaslıq baxımından obyektiv şəkildə tədqiq edilməsi tədqiqatçıların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu baxımdan xanlıqlar dövrü tarixinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın dövlətçilik tarixində mühüm yeri olan xanlıqlar dövrü tariximizin həm maraqlı və həm də ziddiyyətli dövrlərindən biridir. Belə ki, bu dövrdə Azərbaycan tarix səhnəsinə müstəqil və yarımmüstəqil dövlət qurumları formasında çıxmışdı. Azərbaycanın xanlıqlar dövrü tarixinin öyrəniləməsi və tədqiqi bir neçə səbəbdən aktualdır. Birincisi, xanlıqlar müstəqil dövlət kimi fəaliyyət göstərmiş, daxili və xarici siyasət yeritmiş və bütün dövlət atributlarını özündə birləşdirmişdir. Xanlıqlar dövrünü dövlətçilik tarixi baxımındın araşdırılması, obyektiv tədqiqi, buraxılan səhvlərin təhlil edilməsi müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının daxili və xarici siyasətində, dövlətlərarası münasibətlərin qurulmasında ibrət dərsi ola bilər. İkincisi, ayrı-ayrı xanlıqların öyrənilməsi müxtəlif bölgələrin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir. Üçüncüsü**,** xanlıqlar dövrü tarixinin obyektiv araşdırılması ermənilərin Azərbaycanın tarixi torpaqlarında dövlət qurduqlarını, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, onların torpaq iddialarının əsassız olduğunu bir daha sübut edir. XVII əsrin 40-cı illərində güclü siyasi qüvvəyə çevrilən xanlıqlardan biri də Quba xanlığı olmuşdur . Quba xanlığının tarixi hələ XIX əsrdən tarixçilərin diqqətini cəlb etmişdir. Quba xanlığının tarixşünaslığına dair XIX əsr Azərbaycan tarixçilərinin əsərlərində, xüsusən də A. A. Bakıxanovun «Gülüstan-i İrəm» əsərində bu barədə dəyərli məlumatlar vardır. XIX əsrin ortalarında İsgəndər bəy Hacınski Quba xanı Fətəli xana ayrıca əsər həsr etmişdir. Onun əsəri ilk dəfə 1847-ci ildə Tiflisdə nəşr

olunan «Kavkaz» qəzetinin 48-49-cu nömrələrində çap olunmuşdur.
1948-ci ildə Bakıda V. N. Leviatovun «XVIII əsrdə Azərbaycan tarixindən xülasələr» əsərinin nəşr olunması irəliyə doğru atılmış mühüm addım sayılmalıdır. Müəllif XVIII əsrdə Azərbaycanın ictimai-iqtisadi quruluşunu tədqiq etmiş, Azərbaycan xanlıqlarının, o cümlədən Quba xanlığının XVIII əsrin II yarısındakı siyasi tarixini, Rusiya və İranın Azərbaycan uğrunda mübarizəsini işıqlandırmışdır. 50-ci illərin sonu 60-cı illərin əvvəllərindən bəhs olunan mövzu ilə əlaqədar tədqiqat işlərinin çoxaldığı müşahidə olunur. H. Abdullayev 1958-ci ildə nəşr etdirdiyi monoqrafiyasında XVIII əsrin 60-80-cı illərində Quba xanlığı və onun Rusiya ilə münasibətlərini tədqiq etmişdir. 1965-ci ildə nəşr etdirdiyi «Azərbaycan XVIII əsrdə və onun Rusiya ilə qarşılıqlı münasibətləri» adlı irihəcmli digər əsərində H. Abdullayev XVIII əsrin II yarısında ölkənin iqtisadi, ictimai-siyasi vəziyyətini, Rusiyanın siyasətində tutduğu yeri ətraflı tədqiq etmişdir. Məlum sovet
Qarabağ xanlığının tarixşünaslığına dair Mirzə Adıgözəl bəy 1845-ci ildəyazdığı «Qarabağnamə» əsəri, Mirzə Camalın 1847-ci ildə yazdığı «Qarabağ tarixi» («Tarixi-Qarabağ») əsəri, Əhməd bəy Cavanşirin «Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1805-ci ilə qədər)» əsəri, Mir Mehdi Xəzanının «Kitabi tarixi Qarabağ» əsəri, Mirzə Yusif Qarabağinin (Nersesov) «Tarix-İ Safi» əsəri, Rzaqulu bəy Mirzə Camal oğlunun «Qarabağnamə» əsərləri Baharlının «Əhvalati-Qarabağ» və Mirzə Rəhim Fənanın «Tarixi Ciddi Qarabağ» mühüm yer tutur.
Talış xanlığının tarixşünaslığına dair Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun və Seyidəli Kazım bəy oğlunun «Cəvahirnameyi-Lənkəran» əsərlərini aydınlaşdırmaq. Gəncə xanlığının tarixşünaslığına dair Elgün Babazadənin əsərini təhlil etmək. Şəki xanlığının tarixşünaslığına dair Kərim ağa Fateh və Hacı Seyid Əbdülhəmidin əsərlərinin mahiyyətinin aydınlaşdırmaq, M. İsmayılov və M. Bağırovanın tədqiqatlarına diqqət çəkmək. Şamaxı xanlığı uzun müddət tarixşünaslıqda "Şirvan xanlığı" kimi adlandırılmışdır.Bu zaman yeni yaradılan

konsepsiyaya görə guya xanlıqlar Rusiyaya meyl edirdilər və “könüllü birləşmə” tərəfdarı idilər. Bu “Konsepsiya kökündən yanlış idi.” Nailə Bayramovanın Şamaxı xanlığı əsəri problemə konpleks baxımından yanaşıldığından təqdirəlayiqdir. İrəvan və Naxçıvan xanlıqlarının tarixi də tarixşünaslıq baxımından tədqiq edilməsi bu gün daha aktuallıq kəsb edir. A.Çaqarelinin redaktəsi ilə 1890-cı ildə nəşr olunmuş sənədlər məcmuəsində İrəvan xanlığına aid arxiv materialı olduğundan xüsusi əhəmiyyətə malikdir. Məcmuədə toplanmış sənədlərdə II İraklinin Rusiya komandanlığına göndərdiyi məktubları, ayrı-ayrı rus zabitlərinin yazışmaları toplanmışdır. Həmin yazışmalarda İrəvan xanlığının siyasi vəziyyət ilə bağlı bəzi məqamlara toxunulmuşdur. İ.Şopenin «Rusiya imperiyasına birləşdiyi dövrdə Erməni vilayətinin tarixi abidələrinin vəziyyəti» əsəri İrəvan bölgəsinin tarixi, tarixi coğrafiyası və əhalisini öyrənmək üçün ən mühüm mənbədir. Problemin tarixşünaslığı baxımından yazılan əsərlərdən biri də Elçin Qarayevin 2010-cu ildə nəşr olunmuş “İrəvan xanlığı (1747-1828)” əsəridir. Naxçıvan xanlığının tarixi ilə bağlı 90-cı illər Azərbaycan tarixşünaslığında Fuad Əliyev və Mirabdulla Əliyevin birgə tədqiqatı da xüsusi maraq doğurur. Kitabda Naxçıvan xanlığının ictimai-iqtisadi və siyasi tarixi haqqında ilkin mənbələr və arxiv sənədləri əsasında məlumat verilir. [ 71]

## 12. AZƏRBAYCANIN RUSIYA TƏRƏFINDƏN IŞĞALININ TARIXŞÜNASLIĞI

Azərbaycanın Rusiya tərəfindən işğalına dair iki əsrdən çox vaxtda külli miqdarda əsərlər yazılmış və bununla da dövriyyəyə yeni qaynaqlar, sənəd və materiallar daxil edilmişdir. Problemin yeni istiqamətdə tədqiq edilməsi üçün çoxsaylı əsərlər qrupunu dərindən təhlil etmək lazımdır. İşğal probleminə dair yazılmış əsərləri qruplaşdırmaqla, problemin həlli istiqamətində formalaşmış meylləri, fikir və konsepsiyaları müəyyənləşdirməklə bu problemin tarixşünaslıq baxımından öyrənilməsində əsaslı

uğurlar əldə etmək olar. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı öz obyektiv şərhini məhz son dövrlərdə tapmışdır. Bunun üçün bu vaxta kimi yazılmış əsərləri təhlil edib, problemi araşdırmaq vacibdir. Əsasən mövcud konsepsiyaları açıqlamaq vacibdir. “Nisbətən az bəla”, “tərkibinə daxil olma”, “Birləşdirmə”, “könüllü birləşmə” və “işğal konsepsiyalarını açıqlamaqla, problemin tarixşünaslığını müəyyənləşdirmək.

## 13. AZƏRBAYCAN MILLI HƏRƏKATININ TARIXŞÜNASLIĞI

Sovet siyasi sistemi və onun ideologiyasının təsiri altında formalaşan Azərbaycan tarixşünaslığı uzun zaman elmi obyektivlikdən uzaq olmuş, Azərbaycan xalqının tarixi saxtalaşdırılaraq (özü də bilərəkdən) birtərəfli şəkildə tədqiq edilmişdir. Belə tarixi mərhələlərdən biri də hələ XIX əsrdə təməl daşı qoyulmuş milli hərəkat və onun tədqiqi məsələsidir. Bu cür münasibət tariximizdə «ağ ləkələrin» yaranmasına gətirib çıxarmışdır. Azərbaycan milli hərəkatının 1875-1918-ci illər dövrünün tədqiqi daha acınacaqlıdır. Sovet tarixşünaslığı müstəqil Azərbaycan Cümhuriyyətinin qurulması ilə başa çatan bu mühüm mərhələni düzgün qiymətləndirməmiş, bu dövrü kommunist ideologiyasının prinsipləri baxımından izləməyə çalışmışdır. Azərbaycan milli hərəkatının məhz bu dövrləri bolşevizmin xeyrinə saxtalaşdırılmışdır. Azərbaycan milli hərəkatının iqtisadi təməli, Azərbaycanda maarifçiliyin inkişafı sahəsində M.F.Axundzadə, Həsənbəy Zərdabi, M.Kazımbəy, A.A.Bakıxanov, S.Ə.Şirvaninin xidmətləri misilsizdir. Milli hərəkatın ayrı-ayrı problemləri ilə bağlı müxtəlif tədqiqat əsərləri yazılmışdır, lakin bütövlükdə bu bolşevizmin mənafeyi baxımından öyrənildiyindən, xalqın tarixi elə dolaşdırılmışdır ki, uzun müddət bunu öyrənib düzgün tədqim etmək mümkün olmamışdır. Azərbaycan milli hərəkatının çətin, mürəkkəb, gərgin inkişaf yolu ana dilli ilk milli mətbuatın nəşri uğrunda mübarizədən başlamış, söz, mətbuat, şəxsiyyət azadlığı, sosial-demokratik,

milli ərazi muxtariyyəti və dövlətçilik siyasətinə qədər mühüm inkişaf mərhələlərindən keçdiyini aydınlaşdırmqla  Milli hərəkatın əsas mərhələlərini izah etmək. Milli hərəkatın ümmətçilikdən milliyyətçiliyə və milliyyətçilikdən istiqlalçılığa doğru inkişaf etdiyini faktlarla sübut etmək. []

## 14. BAKI XALQ KOMİSSARLARI SOVETİNİN ANTİTÜRK SİYASƏTİNİN TARİXŞÜNASLIĞI

XX əsr vətən tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biri 1917-1920-ci illərin, eləcə də yaranması və fəaliyyəti bu dövrə düşən Bakı Xalq Komissarları Sovetinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.  Son zamanlar tariximizin bu dövrünə maraq xeyli artmışdır.  Bu, bir tərəfdən, bolşevik dönəmində təhrif edilmiş keçmişimiz haqqında obyektiv məlumat əldə etmək istəyindən yaranırsa,  digər tərəfdən, həmin dövrün tarixi təcrübəsindən faydalanmaq zərurətindən irəli gəlir.

Mövzunun tədqiqində Adil xan Ziyadxanlı,  Rəşid bəy İsmayılov, Cahangir Zeynaloğlunun əsərləri qiymətli mənbələr olmaqla, problemin tarixşünaslıq baxımından öyrənilməsində mühüm əhəmiyyətə malikdir.  Mövzuyla bağlı digər mənbə Cahangir Zeynaloğlunun 1924-cü ildə İstanbulda nəşr olunmuş “Müxtəsər Azərbaycan tarixi” əsəridir. Stepan Şaumyanın oğlu Suren Şaumyanın “Bakı Kommunası” əsəridir.  S.  Şaumyanın etiraf etdiyi bir çox tarixi həqiqətlər sonralar ya təhrif olunmuş,  ya da bunlara sovet ideologiyası baxımından siyasi don geyindirilmişdir. Müəllif əsəri yazarkən bir sıra sənədlərdən istifadə etmiş,  Bakı XKS-nin həyata keçirdiyi milliləşdirmə,  Qafqaz İslam Ordusu ilə döyüşlər,  həmçinin,  komissarların güllələnməsi haqqında məlumat vermişdir.  Mövzumuzla bağlı Sovet dönəmində tarixə dair yazılmış bir sıra əsərlərdə də məlumat var.  Lakin  bu əsərləri nəzərdən keçirərkən onlara tənqidi yanaşmaq lazımdır.  Bunun başlıca səbəbi kommunist rejimi vaxtı tarixin təhrif olunması, yuxarıların istəyinə uyğun şəkildə yazılmasıdır. Belə ki, Stepan Şaumyan bütün sovet dövründə xalqımızın, o cümlədən gənclərimizin vətənpərvərlik tərbiyəsində “canlı örnək” rəmzinə çevrilmiş, milli müstəqillik uğrunda mübarizə aparan ziyalılarımız

isə vətən xaini kimi qələmə verilmişdir. Z.İbrahimov, P.Əzizbəyova, C.Quliyev, H.Şahgəldiyev, T.Köçərli, N.Əlizadə, A.Milman və b. Azərbaycanda sovet hakimiyyətinin qurulmasına dair yazdıqları əsərlərində Bakı Xalq Komissarları Soveti haqqında bir sıra həqiqətdən uzaq, təhrif olunmuş məlumatlar vermişlər. 1917-20-ci illər tarixinin daha ətraflı öyrənilməsi ideoloji təkəbbürlərdən azad, hadisələrə obyektiv münasibət bildirən çağdaş tarixçilərimizin adı ilə bağlıdır. Onlardan N. Nəsibzadə, C.Həsənli, A.İsgəndərov, X.Məmmədov, A.Balayev, İ.Musayev, F.İbrahimli, N.Yaqublu, V.Abışov, B.Nəcəfov, S.Yusifzadə, K.Sofiyeva, M.Süleymanov və başqalarını göstərmək olar. []

## 15. TÜRK- MÜSƏLMAN SOYQIRIMININ TARİXŞÜNASLIĞI

Tədqiq olunan problemin vətən, sovet, mühacir və xarici tarixşünaslıqda işıqlandırılması ilə bağlı kompleks şəkildə elmi əsərlər yazılmamışdır. Ayrı-ayrı dövrlərdə bu mövzuya həsr edilmiş əsərlərə ideoloji tələblərdən yanaşılmış, bu isə bir-birinə zidd olan iki konsepsiyanın yaranmasına gətirib çıxarmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm xidmətləri olan M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun, Adil xan Ziyadxanlının əsərləri qiymətli mənbələr olmaqla, problemin tarixşünaslıq baxımından öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Son dövrlərdə bu problemin öyrənilməsinə kompleks yanaşıldığını vurğulamaqla, bölgələrdə törədilən soyqırımları obyektiv şəkildə açıqlamaq vacib şərtlərdən biridir. .

## 16. QAFQAZ İSLAM ORDUSUNUN TARIXŞÜNASLIĞI

Qafqaz İslam Ordusunun yaradılması və onun müxtəlif hərəkatlarda iştirak etməsi baxımından bu gün Azərbaycan

tarixşünaslığında ən aktual problemlərdən biridir. Qafqaz İslam Ordusunun mövcudluğunu Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilkin mərhələləri kimi qiymətləndirsək yanılmarıq. Bu mərhələdə müstəqil dövlət quruculuğu sahəsində mühüm addımlar atılmış və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə nail olunmuşdur. AXC-nin iki illik tarixinin maraqlı səhifəsini təşkil edən Qafqaz İslam Ordusunun yaranması, onun Azərbaycanın ərazi bütövlüyü uğrundakı mübarizəsi kifayət qədər öyrənilməmişdir. Qafqaz İslam Ordusunun tarixinin öyrənilməsi, müstəqilliyin elan edilməsi ərəfəsində və müstəqilliyin ilk aylarında Azərbaycanda siyasi və hərbi şəraitin formalaşdırılmasının araşdırılması, bu şəraitə təsir göstərən amillərin üzə çıxarılması, Azərbaycanın müstəqilliyinin hansı təhlükə ilə qarşılaşması və bu təhlükənin aradan qaldırılması üçün hansı istiqamətdə hərəkət edilməsi baxımından əhəmiyyətlidir. Bu, həmçinin Sovet Rusiyasının bölgədəki dayağı olan Bakı Sovetinin bolşevik-daşnak qüvvələrinin, habelə alman imperializminin, ingilis qüvvələrinin Azərbaycandakı müstəqillik ovqatına qarşı necə cəbhə qurduqlarını və buna qarşı mübarizə aparılmasında Qafqaz İslam Ordusunun tarixini və fəaliyyətini düzgün qiymətləndirmək imkanı verir. []

## 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TARİXŞÜNASLIĞI

Azərbaycan xalqının öz ruhundan doğan, milli azadlıq hərəkatının yekunu kimi yaranan AXC xalq hakimiyyətinin respublika formasını, siyasi inkişafın Qərbdə böyük uğurlara nail olmuş sosial-demokratiya istiqamətini, ümumbəşəri tərəqqinin həm Qərb, həm də Şərq meyllərini özündə birləşdirirdi. Müasir dövrdə Azərbaycan Respublikası onun sələfi olan Azərbaycan Xalq Cümhuriyyətinin topladığı təcrübəyə böyük qiymət verir, onun uğurlarından yararlanır, buraxdığı səhvləri təhlil edir. Bu problem bilavasitə 1918-ci ilin mayın 27-dən 1920-ci ilin aprelin

sonlarına qədər olan dövrü əhatə edir. Belə ki, bu dövr Zaqafqaziya Seyminin buraxılması ilə əlaqədar yaranmış böhranlı siyasi vəziyyəti müzakirə etmək üçün Seym fraksiyasına daxil olan Azərbaycan nümayəndələrinin 1918-ci il mayın 27-də fövqəladə iclasından, Milli Şuranın 28 may tarixli iclası ilə Azərbaycanın müstəqil respublika kimi elan etməsindən 1920-ci ilin aprel işğalınadək olan dövrdür. Problem müstəqillik dövrünə qədər vətən tarixşünaslığında tədqiq olunmamışdır. Ayrı-ayrı dövrlərdə Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş əsərlərə ideoloji tələblərdən yanaşılmış, bu isə bir-birinə zidd olan müxtəlif konsepsiyaların yaranmasına gətirib çıxarmışdır.
1918-1920-ci illər tarixinin daha ətraflı öyrənilməsi ideoloji təkəbbürlərdən azad, hadisələrə obyektiv münasibət bildirən çağdaş tarixçilərimizin adı ilə bağlıdır. Onlardan N. Nəsibzadə, A.Balayev, C.Həsənli, İ.Musayev, A. İsgəndərov, A.Paşayev, B.Nəcəfov, P.Dərabadi, T.Nəsirov, M.Əliyev, F.İbrahimli, X.Məmmədov, M.Qasımov, İ.Bağırova, N. Ağamalıyeva, N. Məhərrəmov, İ.Ağayev, A.Göyüşov, X.İbrahimli, N.Yaqublu, F.Əhmədova, və başqalarını göstərmək olar. Adı çəkilən tarixçilərin əsərləri ilə AXC tarixinə yeni konseptual baxış formalaşdı. []

## 18. II RESPUBLIKA DÖVRÜNÜN TARIXŞÜNASLIĞI

Azərbaycanın XX əsr tarixinin obyektiv tədqiqi aktuallıq təşkil edir. Prezident H.Əliyev Azərbaycan Milli Elmlər Akademiyasında keçirdiyi 31 yanvar 1997-ci il tarixli görüşündə Azərbaycanın XX əsr tarixinin yenidən yazılmasının aktuallığı haqqında demişdir: “Azərbaycanın XX əsr tarixi yazılmalıdır… Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Azərbaycanın XX əsr tarixinin obyektiv tədqiqi üçün üç respublika: I Respublika - Azərbaycan Xalq Cümhuriyyəti (28 may 1918 - 27 aprel 1920), II Respublika - Azərbaycan Sovet Sosialist Respublikası (28 aprel 1920 - 18 oktyabr 1991), III Respublika - Azərbaycan Respublikası (18 oktyabr 1991)

tarixlərinin dövrlərə bölgüsünün düzgün aparılması mühüm əhəmiyyət kəsb edir. XX əsr tarixinin dövrlərə bölgüsü uzun zaman Sov. İKP-nin siyasi xətti əsasında həyata keçirilib. Sovet dövründə SSRİ tarixinin tərkib hissəsi kimi Azərbaycan SSR-in tarixi də eyni dövrlərə bölünmüşdü. Bu problemlə bağlı 75 digər respublikalarda müəyyən elmi araşdırmalar aparıldığı halda, həmin dövrdə Azərbaycanda bu sahəyə ciddi fikir verilməyib. Rusiya tarixçilərindən M.V.Neçkina, M.P.Kim, N.N.Dikov XX əsr tarixinin dövrlərə bölgüsünə aid bir sıra elmi məqalələr yazmışlar. SSRİ-də sovet dövrü tarixinin dövrləşməsini əsaslı surətdə akademik M.P.Kim hazırlayıb. Lakin onun sxemindən daha təkmil sxemi SSRİ EA-nın müxbir üzvü N.N.Dikovun "Sovet cəmiyyəti tarixinin dövrləşməsi haqqında" məqaləsində verilib. A.A.Danilov və L.Q.Kosulinanın Moskvada 1996-cı ildə rus dilində nəşr olunmuşdur. Azərbaycan SSR-in tarixinin dövrlərə bölünməsi sahəsində müxtəlif baxışlar və sistemlər mövcuddur. Buna görə də, Azərbaycanın sovet dövrü tarixinin dövrlərə bölünməsi tarixşünaslığının tədqiqi də böyük aktuallıq kəsb edir. Bakı Dövlət Universitetinin tarix fakültəsində 1992-ci ilin may ayında keçirilmiş "Azərbaycan tarixinin dövrləşməsi" probleminə həsr olunmuş seminar və nəşr olunmuş bir neçə məqalə istisnalıq təşkil edir. Bu seminarda Azərbaycan tarixinin dövrlərə bölünməsinə aid müxtəlif fikirlər səslənib, alimlər başqa dövrlər ilə yanaşı, S. Əliyarlı, Y.Mahmudov, Azərbaycan SSR EA Tarix İnstitutunun nəşr etdiyi 3 cildlik "Azərbaycan tarixi"nin 1973-cü ildə nəşr olunmuş 3-cü cildində, B.Abdullayev və R.Abdullayev tərəfindən yazılaraq, 1995-ci ildə nəşr olunmuş "XX əsrin siyasi tarixi" (qısa xronologiya ) kitabında, K.Şükürovun kitabında, 7 cildlik "Azərbaycan tarixi"nin C.B.Quliyevin redaktorluğu ilə nəşr olunmuş VI cildində və T.Qaffarovun redaktorluğu ilə nəşr olunmuş VII cildində tədqiqata aid illərin dövrləşməsi geniş verilib.

## 19. AZƏRBAYCANIN II DÜNYA MÜHARIBƏSINDƏ IŞTIRAKININ TARIXŞÜNASLIĞI

Azərbaycan tarixinin ən gərgin dövrlərindən biri də İkinci dünya müharibəsidir. Bu dövrə aid sovet tarixçiləri çoxsaylı sanballı əsərlər yazmışlar. Lakin bu əsərlərdə bütün müvəffəqiyyətlər heç bir fərq qoyulmadan sovet xalqının adına çıxılırdı. Halbuki 1941-1945-ci illərdə faşizmə qarşı müharibədə SSRİ-nin qələbə əldə etməsində Azərbaycan xalqı böyük rəşadət göstərdi. Problemin öyrənliməsi xronoloji cəhətdən şərti olaraq bir neçə dövrə bölünür. Bu dövrdə meydana gələn əsərlər daha çox mənbə xarakteri daşıyır. İkinci dövr 50-ci illərin ikinci yarısından sonrakı dövrdür. Bu dövrdə problemin elmi baxımdan öyrənilməsinin bünövrəsi qoyuldu. Müharibədə Azərbaycanın iştirakının tarixinə dair yazılarda ayrı-ayrı qəhrəmanların həyatı və döyüş səhnələrində Azərbaycan əsgərlərinin iştirakının epizodik olaraq verilməsi üstünlük təşkil edirdi. Bəhs olunan dövrə aid V. Belyayevanın, Ə. Bağırzadənin, Ə. Əliyevin, T. Novruzovun, S. Heydərovun, Q. Mədətovun, M. Abbasovun, Ə. Kərimovun, T. Qurbanovun əsərlərini qeyd etmək olar. Müharibədən sonra müharibənin tarixinin tədqiqi başlıca mövzuya çevrilirdi. Azərbaycanın müharibədə iştirakının tarixi tədqiqində növbəti dövr kimi 70-80-ci illəri qeyd etmək lazımdır. Bu illərdə Azərbaycan tarixinin bütün dövrləri geniş tədqiq olunmağa başlamışdır. Azərbaycanın orta əsrlər dövrü, yeni tarixinə dair mükəmməl əsərlər bu dövrdə yaranmışdır. Bəhs olunan problemin tədqiqində Q. Mədətov, M. Abbasov, Ə. Sumbatzadə, R. Zeynalov, Z. Bünyadov, S. Sultanov, C. Hüseynov, T. Qurbanov və başqa tədqiqatçıları xüsusi qeyd etmək lazımdır. Bu dövrdə ən kiçik epizodlar belə geniş təhlil olunmuşdur. Azərbaycanın müharibədə iştirakının tarixşünaslığının son dövrü kimi 90-cı illərin birinci yarısını götürmək olar. SSRİ-nin süqutu ilə əlaqədar Böyük Vətən müharibəsinə dair konsepsiyalar yavaş-yavaş dəyişməyə və hadisələr obyektiv şəkildə işıqlandırılmağa başlamışdır.

## 20. DAĞLIQ QARABAĞ PROBLEMININ TARIXŞÜNASLIĞI

İmperiyanın süquta uğraması eyni zamanda etnik və siyasi konfliktlərin alovlanmasına rəvac verdi. SSRİ-nin süqutu ərəfəsində yaranmış vəziyyətdən istifadə edən ermənilər 1988-ci ilin əvvəlində Azərbaycana qarşı açıq hərbi təcavüzkarlıq siyasətinə başladılar. İki yüz ildən artıqdır ki, Azərbaycan xalqı ermənilərin vaxtaşırı ərazi iddialarına, soyqırım və etnik təmizlənmə kimi, ağır cinayətlərinə məruz qalmışdır. Yerli xalq olan azərbaycanlılar ermənilər tərəfindən təşkil edilən amansız hücumların obyekti olaraq öz doğma ocaqlarından qovulur, qaçqına və köçkünə çevrilirlər. Ermənilərin ərazi iddiaları azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirdikləri qırğınlar və soyqırımlarla dəhşətli faciələrlə nəticələnir. 1988-ci ildə erməni ideoloqları "Böyük Ermənistan" uydurmasını yenidən ortaya atmaqla "Dağlıq Qarabağ" problemini yaratdılar. Azərbaycan tarixşünaslığında 80-cı illərin sonu 90-cı illərin əvvəllərində baş verən hadisələrlə bağlı bir çox əsərlər, monoqrafiyalar, xatirə ədəbiyyatları, məqalələr yazılıb. Bu tarixi ədəbiyyatları isə iki qisimdə qruplaşdırmaq olar. I. 1988-ci ilin fevralından -1991-ci ilin oktyabrına qədər Azərbaycanda, xüsusən onun paytaxtı Bakı şəhərində baş verən hadisələr – mitinqlər, küçə yürüşləri, piketlər, tətillər, meydanlarda və salonlarda keçirilən müxtəlif yığıncaqlar o cümlədən 1988-ci ildən başlayaraq Ermənistan SSR-dən azərbaycanlıların sonuncu deportasiyası bir dövr təşkil edir. II 1992- ci ildən Dağlıq Qarabağda hərbi əməliyyatların aktiv fazasının başlanması, Dağlıq Qarabağ və ətraf 7 rayonun itirilməsi, 1994-cü ildə imzalanan Bişkek protokolu ilə atəşkəsin elan olunması hadisələrin növbəti mərhələsi kimi dəyərləndirmək olar.

Bəhs etdiyimiz dövrdə Azərbaycanda, xüsusən Dağlıq Qarabağ ətrafında cərəyan edən proseslərlə tanış olmaq üçün Ədalət Tahirzadənin 1997-ci ildə nəşr olunmuş 2 cildlik "Meydan 4 il 4 ay" əsəri xüsusi qeyd olunmalıdır. Xəliyəddin Xəlillinin 2006-cı ildə nəşr olunmuş "Qarabağ: etnomənəvi inkişaf tarixi" əsərində işıqlandırılıb. Monoqrafiyada alban türklərinin etnos kimi formalaşlamsından geniş bəhs olunur. Kitabda, həmçinin,mənbələr əsasında Avropa imperialistlərinin xristian

təssübkeşliyi ilə ermənilərdən istifadə etmək məqsədilə onların Qarabağa və Qafqaza köçürülməsindən danışılır. Azərbaycanda xalq hərəkatının ideya siyasi təkamülünü izləmək baxımından Əbülfəz Elçibəyin 1992-ci ildə nəşr olunmuş "Bu mənim taleyimdir" və "Deyirdim ki, bu quruluş dağılacaq" əsərləri əhəmiyyətlidir. Birinci əsərdə Ə. Elçibəyin müxtəlif mitinq, nümayiş və yığıncaqlardakı çıxışları, televiziya və mətbuata verdiyi müsahibələri əks olunub. Göstərilən əsərdə müəllifin əsasən milli hərəkatdakı fəaliyyəti və bu haqda düşüncələri yer alsa da, lakin Dağlıq Qarabağ problemi ilə bağlı ayrı-ayrı çıxışlarında söylədiyi fikirlər və bu problemlə bağlı fəaliyyətinə də toxunulur. Bu istiqamətdə yazılmış əsərlərdən biri də Yaqub Mahmudov və Kərim Şükürovun 2005-ci ildə nəşr olunmuş "Qarabağ: real tarix, faktlar, sənədlər" kitabıdır.
Problemlə bağlı E.Abdullayevin, E.Əhmədovun, Ə.Həsənovun əsərləri Dağlıq Qarabağ probleminin beynəlxalq hüquqi müstəvidə həll olunmasına dair əsərlər kompleksinə aiddir. []

## 21. XX ƏSRIN AZƏRBAYCAN TARIXÇILƏRININ TARIXŞÜNASLIQDA YERI

Azərbaycan tarixşünaslıq elminə töhfə verən və onun orta əsrlər dövrünü zənginləşdirən tədqiqatçılardan biri də Məmmədəli Xəlil oğlu Şəriflidir. M.X.Şərifli Azərbaycanda tarix elmini yaradanların sırasında olmuşdur. Onun çoxsaylı elmi tədqiqatlarında IX-XIII əsrlərdə Azərbaycan tarixinin əvvəllər az tədqiq olunmuş və ya qətiyyən tədqiq olunmamış məsələləri işıqlandırılıb. M.X.Şərifli üç clddə buraxılmış "Azərbaycan tarixi"nin (Bakı, Azərbaycan SSR EA-nın nəşriyyatı) V, VI fəsillərinin müəllifi, II, III, VII fəsillərinin həmmüəllifidir. "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)", "Eldəgizlər" (Azərbaycan SSR EA-nın xəbərləri, "İctimai elmlər" seriyası) kimi fundamental elmi əsərlər onun qələminin məhsuludur. 1965-ci ildə M.X.Şərifli özünün 20 illik elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq "IX əsrin ikinci yarısında-XI əsrdə Azərbaycan feodal dövlətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. IX əsrin ikinci yarısında – XI əsrdə

Ərəb xilafətinə və Səlcuq imperiyasına qarşı mübarizə şəraitində Azərbaycan feodal dövlətlərinin yaranması və inkişafı problemlərinin tədqiqinə həsr olunmuş bu əsər Azərbaycan, Qafqaz, Orta Asiya və bütövlükdə Orta və Yaxın Şərq ölkələri tarixi üçün böyük əhəmiyyət kəsb edir. Professor M.X.Şərifli elmə az məlum olan ərəb, fars, türk, Suriya, gürcü və müxtəlif qərb mənbələrinə, ingilis, fransız, alman, həmçinin rus dillərində olan əsərlərə, arxeoloji qazıntı materiallarına və numizmatik məlumatlara əsaslanaraq Azərbaycanın siyasi tarixini tədqiq edib, onun tarixi-coğrafi mövqeyini müəyyənləşdirib, siyasi reallıqları bərpa edib, Ərəb xilafətinə qarşı Azərbaycan xalqının mübarizəsi şəraitində Azərbaycan feodal dövlətlərinin – Şirvanşahların, Məzyədilərin, Sacilərin, Salarilərin, Şəddadilərin, Rəvvadilərin, həmçinin Mərənd, Naxçıvan əmirliklərinin yaranmasının və inkişafının ilkin tarixi şərtlərini tədqiq edib. M.X.Şərifli öz əsərində oxucunu Azərbaycanda mövcud olmuş Rəvvadilər, Sacilər dövlətləri və Naxçıvan şahlığı kimi dövlət qurumları ilə tanış edir ki, bu barədə də sovet tarixşünaslığında o vaxtadək heç bir elmi məlumat yox idi. Əlisöhbət Sumbatzadə bir sıra elmi tədqiqat əsərləri ilə yadda qalan görkəmli Azərbaycan tarixçisidir. Ə. Sumbatzadə 1942-ci ildə "1937-ci il Quba üsyanı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycanın Rusiyaya "birləşdirilməsi"nin mütərəqqi hadisə kimi təqdim olunduğu həmin illərdə belə bir mövzunun işlənməsi təbii ki, vətənpərvərlik və vətənini sevmək təşəbbüsündən irəli gəlirdi. Belə ki, bu tədqiqat işində müəllif "Hindistanın İngiltərə üçün oynadığı rolu Azərbaycan da Rusiya üçün oynamalıdır" prinsipini rəhbər tutan Rusiya işğalçı dairələrinin antiazərbaycan siyasətini cəsarətlə işıqlandırmış, Azərbaycanın başına gətirilən müsibətləri, Gülüstan və Türkmənçay müqavilələrindən sonra üzləşdiyimiz haqsızlıqları, öz doğma torpağımızda özümüzü gəlmə kimi hiss etməyimizi, ən adi insani hüquqlarımızın çoxsaylı vergi və mükəlləfiyyətlərlə əlimizdən alınması ilə həyat tərzimizin ağırlaşmasını və dözülməz bir vəziyyətə salınmasını son dərəcə geniş bir tərzdə tədqiq etmişdir. Şərqşünas və görkəmli tarixçi

İqrar Həbib Əliyev və Ziya Bünyadovun da Azərbaycan tarix elmindəki xidmətlərini dəyərləndirmək. □

## 22. AZƏRBAYCAN TARİXİNƏ DAİR ÜMUMİLƏŞDİRİLMİŞ ƏSƏRLƏRİN TARİXŞÜNASLIQDA YERİ

Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlər və akademik nəşrlər. VII cildlik Azərbaycan tarixi və onun əhəmiyyəti. Qarabağ tarixi ilə bağlı elmi araşdırmalar. 90-cı illərdə baş vermiş hadisələrlə əlaqədar meydana çıxan əsərlər.
Dövrü mətbuat və tarixi fikrin inkişafında onun əhəmiyyəti. Hal-hazırda Azərbaycanda tarix sahəsində nəşr olunan elmi jurnallar (Azərbaycan EA-nın Xəbərləri, BDU-nun «Elmi xəbərləri», «Tarix və onun problemləri», «Mütərcim»və b.). Onların istiqamətləri və tarixşünaslıq elminin inkişafında rolu.
Müasir dövrdə Azərbaycan tarixinin bütün dövrlərinə dair mənbələrin aşkar edilməsi, sistemləşdirilməsi və nəşri. Bu vaxta qədər «xüsusilə məxfi» qrifi altında saxlanılan mənbələrin nəşr edilməsi və elmi dövriyyəyə cəlb olunması.
Müasir mərhələdə Azərbaycan tarix elminin qarşısında duran vəzifələr və onların perspektivləri. Tarixşünaslıqda milli konsepsiyanın yaranması. □

**Fənnin tədris üsulları:** interaktiv mühazirələr, əyani vəsaitlərdən istifadə. Tədris prosesində tələbələrin fəal iştirakı məqsədilə mühazirə və məşğələlər zamanı diskussiya metodundan istifadə edilməsi.

**Fənnin maddi-texniki təminatı.** Bu fənnin tədrisi prosesinin təşkili üçün multimedia sistemi (elektron lövhə) və internet bağlantısı imkanları ilə təchiz olunan auditoriyanın istifadəsi nəzərdə tutulur. Bundan əlavə tarixi sənədlərin, əsərlərin, dövri mətbuat nümunələrinin, statistik cədvəllərin, üzərində yazi olan abidələrin şəkillərinin və s. istifadəsi də həyata keçirilir.

# MƏNBƏŞÜNASLIQ

## 1. MƏNBƏŞÜNASLIQ KURSUNA GİRİŞ. MƏNBƏŞÜNASLIGIN PREDMETİ VƏ VƏZİFƏLƏRİ

Mənbəşünaslıq elminin tarix elminin bir sahəsi kimi meydana çıxması və onun inkişaf mərhələləri.

Mənbəşünaslıq anlayışı çox mənalı termin kimi. Tarixi mənbə anlayışı. Obyektiv gerçəkliyin tarixi mənbələrdə əks olunmasının xüsusiyyətləri**.** Mənbədə obyektiv və subyektiv amillər.Tarixi mənbə və tarixçi. Mənbəşünaslıq tədqiqatlarının iki istiqaməti: nəzəri-metodoloji və konkret-tətbiqi istiqamətlər.Nəzəri-metodoloji istiqamətin iki yönü. Tarixi-tipoloji yön. Konkret-tətbiqi istiqamət və bu istiqamətin tarixi tədqiqatların təcrübəsi ilə sıx bağlılığı.

İnformasiya haqqında təlim. Sosial informasiyanın mahiyyətinə iki baxış. Obyekt, subyekt və informasiya. Aktual və potensial informasiya. İnformasiyanın sintaksik aspekti. Subyektin obyektiv reallığı əks etdirməsinin üç əsas üsulu – adi empirik, elmi və bədii üsullar. İnformasiya haqqında təlim və tarixi mənbə.

Mənbəşünaslıq və köməkçi tarix fənləri.

**Tarixi mənbələrin təsnifatı.** Erkən təsnifat sistemləri və onların çatışmazlıqları. Mənbələrin tipinə görə təsnif olunması. Sosial informasiyanın əks olunması üsullarına və formalarına görə mənbələrin təsnifatı.

Yazılı mənbələrin növünə görə təsnif edilməsi. Kütləvi və unikal mənbələr. Kütləvi mənbələrin xüsusiyyətləri və tarixi tədqiqatlar üçün əhəmiyyəti.

**Mənbəşünaslığın əsas metodoloji prinsipləri.** Obyektivlik prinsipi və onun mənbəşünaslığa tətbiq edilməsinin aspektləri. Mənbələrin öyrənilməsində tarixilik prinsipi.

**Mənbələrin təhlil edilməsi metodları.** Mənbələrin axtarışı və aşkar edilməsi. Mənbəşünaslıq təhlilinin vəzifələri. Tarixi mənbələrin xarici tənqidi. Mənbələrin daxili tənqidi. Mənbənin məlumatları üzərində iş üsullarının və metodlarının müəyyən edilməsi. Ənənəvi və yeni təhlil üsulları. Riyazi metodların və EHM-nın tətbiqi [7;8;10].

## 2. AZƏRBAYCANIN QƏDİM DÖVRÜNƏ AİD MƏNBƏLƏR

**Azərbaycan tarixinin ən qədim dövrünə aid mənbələr** və onların xüsusiyyətləri. Epiqrafik abidələr.

**Mixi yazılar.** Mixi yazıların meydana çıxması və növləri. Mixi yazıların elm aləmində öyrənilməsi. E.ə. III minilliyə aid olan Şumer dastanları Azərbaycan ərazisindəki dövlət birlikləri haqqında. Akkad hökmdarı Naramsinin stelası kutilər və lullubilər haqqında. Anubanininin relyefli kitabəsi.

Assuriya mixi yazıları. Urartu mixi yazıları. Onların təsnifatı. Əhəməni mixi yazıları.

**Avesta.**Onun elm aləmində öyrənilməsi. Avestanın redaksiyaları, tərkibi və məzmunu. Mənbəşünaslıq təhlili üsulları. [1;5;]

## 3. AZƏRBAYCAN TARİXİNİN ANTİK DÖVRÜNƏ AİD MƏNBƏLƏR

**Yunan müəlliflərinin əsərləri.** Miletli Hekateyin "Yerin təsviri" əsəri. Herodot və onun «Tarix» əsəri. Ksenofont, Polibiy, Siciliyalı Diodor. Strabon. İosif Flavi. Plutarx. Klavdi Ptolomeyin «Coğrafiya dərsliyi». Flavi Arrian. Klavdi Elian. Kassi Dion Kokkeyan. Porfiriy və b.

**Roma müəlliflərinin əsərləri.** Tit Liviy. Pompey Troq. Velley Paterkul. Pomponiy Mela. Qay Plini Sekundinin ensiklopedik əsəri. Korneli Tatsitin «Annalları». Yuli Solin, Ammian Martselin və b.

**Bizans mənbələri.** Onların xüsusiyyətləri. Qeysəriyyəli Prokopi. Aqafiy. Menandr. Feofilakt Simokatta. Bizanslı Feofan. Nikifor Patriarx. Georgi Amartol və b.

Yunan, Roma və Bizans müəlliflərinin əsərlərinin mənbəşünaslıq təhlili üsulları [1,5,40].

## 4. AZƏRBAYCANIN ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNƏ AİD ERMƏNI VƏ GÜRCÜ MƏNBƏLƏRİ

Koryunun «Mesrop Maştosun həyatı» əsəri. Aqafangelin, Yegişenin və Lazar Parpetsinin əsərləri. F.Buzandın «Ermənistan tarixi». Moisey Xorenlinin əsəri, onun strukturu və tərkibi. Sebeosun və Gevondun əsərləri. Ananiya Şiraklı və onun «Coğrafiya əsəri».

Epistolyar sənədlər toplusu «Girk tltots» (« Məktublar kitabı») V-VIII əsrlərdə Albaniya tarixinə dair mənbə kimi.

**Gürcü mənbələri.** Gürcü mənbələri və onların xüsusiyyətləri. Salnamələr toplusu «Moksevay Kartlisay». Mroveli Leontinin «Kartli çarlarının həyatı» və Cavanşirin «Vaxtanq Qorqasalın həyatı» əsərləri. «Kartlis Tsxovreba».[41;42]

## 5. AZƏRBAYCAN TARİXİNƏ DAİR YERLİ NARRATİV MƏNBƏLƏR

**Yerli alban mənbələri.** Yerli narrativ (nəqli) alban mənbələri. Onların xüsusiyyətləri və mənbə kimi öyrənilməsi prinsipləri.

Moisey Kalankatuklunun «Alban tarixi» əsəri. Əsərin ən qədim əlyazmaları, redaksiyaları. XIX əsrdə meydana çıxmış siyahıları, nəşrləri. «Alban tarixi»nin strukturu və tərkibi.

Albaniyanın qanunvericilik sənədləri. Aquen kilsə məclisinin qanunları. Erməni qanunlar külliyyatı «Kanonagirk» və onun redaksiyalarında Aquen qanunları. Aquen qanunlarının nəşrləri. Albaniyanın ictimai-siyasi quruluşunu öyrənmək üçün bu qanunların əhəmiyyəti.

Bərdə kilsə məclisinin qərarları. Katolikos Simeonun qərarları. [1;3;43]

## 6. AZƏRBAYCAN TARİXİNƏ DAİR ERKƏN ORTA ƏSR TÜRKDİLLİ MƏNBƏLƏR

**Türkdilli abidələr.** Qədim türk Orxon-Yenisey abidələri, onların öyrənilməsi və təsnifatı.Türk xalqlarının tarixini öyrənmək üçün əhəmiyyəti.

«Kitabi-Dədə Qorqud» eposu türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin tarixinə dair qiymətli qaynaq kimi Eposun əsas versiyaları və mübahisələr. [1,2,3,4,16,25,28,33,38,39].

## 7. AZƏRBAYCAN TARİXİNƏ DAİR SURYANİ MƏNBƏLƏR

Suryani mənbələr və onların xüsusiyyətləri. Suriyalı Mixail və onun “Xronika”sı. Əbül Fərəc Bar Ebreyin «Ümumi tarix» əsəri. Əbül Fərəcin «Maraqlı əhvalatlar kitabı» Şərq xalqlarının tarixinə dair mənbə kimi. Bu mənbələrin öyrənilməsinin əhəmiyyəti. [40]

## 8. AZƏRBAYCAN TARIXINƏ DAIR FARSDILLI MƏNBƏLƏR

**Pəhləvi yazıları.** Orta fars pəhləvi yazıları və onların xüsusiyyətləri.. Dini ədəbiyyat abidələri. Avestanın yazılı mətnlərinə dair orta fars əsərləri. «Bundaxişn» («Əsas yaradan»), onun əsas mövzuları.

Denkard, onun əsas redaksiyaları və tərkibi. «Arda Viraz namaq» («Mömin Virazın kitabı»), onun məzmunu. «Dadestan-i Menoq-i Xrad» («Aqillik ruhunun mülahizəsi») əsəri. Onun məzmunu.

Dünyəvi ədəbiyyat, onun xüsusiyyətləri. «Xvaday namaq» («Hökmdarlar kitabı»). «Papakın oğlu Ərdəşirin əməlləri» kitabı. «Tansarın məktubu». «İranın şəhərləri» və s. «Min məhkəmə qərarları kitabı» – Sasanilər dövrünün hüquq külliyyatı kimi. [1;28;]

## 9. AZƏRBAYCAN TARİXİNƏ DAİR ƏRƏB MƏNBƏLƏRİ

**Ərəb müəlliflərinin əsərlərində Azərbaycanın siyasi və sosial-iqtisadi həyatı.** Übeyd ibn Şəriyyə əl Curmuhinin «Xəbərləri» ərəblərə qədərki Azərbaycan və onun türkdilli əhalisi haqqında.Yaqub əl-Kufinin «“Kitab əl-xərac» əsəri. Əl-Bəlazurinin «Kitab fütuh əl-buldən» («Ölkələrin fəthi kitabı»). İbn Cəfər əl-Yəqubinin «Tarix» və «Ölkələr kitabı» əsərləri. İbn Xordadbehin «Yollar və dövlətlər kitabı». İbn Rüstənin «Qiymətli boyunbağılar kitabı» .Əhməd ibn Fədlanın «Risaləsi». Əl-Məsudinin tarixi-coğrafi əsərləri. Əl-İstəxri. Əbü-l Qasim ibn Havqəlin «Kitab əl-məsalik və-l məmalik» əsəri orta əsr Azərbaycanının tarixi coğrafiyası haqqında. Əbu Duləfin II «Risalə»si. Əl-Müqəddəsi və b.

**Xürrəmilər hərəkatı ərəb mənbələrində.** Əbu Təmmamın qəsidələri. Təmiminin «Babəkin tarixi» əsəri. İbn Əsəm əl-Kufinin «Kitab əl-fütuh» əsərində Azərbaycan və xürrəmilər hərəkatı haqqında məlumatlar. Ət-Təbərinin əsərində Azərbaycan və xürrəmilər hərəkatı. Hənifə əd-Dinəvərinin əsəri. İbn ən-Nədimin «Əl-fihrist» («Mündəricat») əsəri. Ibn əl-Əsirin və Yaqut əl-Həməvinin əsərlərində xürrəmilər hərəkatının işıqlandırılması. [1;2;4;6;29;]

## 10. AZƏRBAYCANIN XVI-XVIII ƏSR TARİXİNƏ AİD MƏNBƏLƏR

**Azərbaycan tarixinin bu dövrünə aid mənbələr və onların xüsusiyyətləri.**

**Yerli alban mənbələri.** Mxitar Qoşun əsərləri: «Alban xronikası», onun əsas əlyazmaları, nəşrləri, strukturu, tərkibi. Səlcuq dövrü tarixini öyrənmək üçün əhəmiyyəti. «Gəncəli Xosrovun əzablı həyatı» əsəri. Mxitar Qoşun «Qanunnamə»si.

Gəncəli Kirakosun «Tarix» əsəri. Əsərin strukturu və məzmunu. Azərbaycanın monqol işğalları dövrünün tarixini öyrənmək üçün əhəmiyyəti.

**Fars dilli mənbələr.** Səlcuqlar dövrünə və Azərbaycan Atabəyləri dövlətinin tarixinə aid mənbələr.

Nizam əl-Mülkün «Siyasətnamə» əsəri səlcuq dövrünə aid qiymətli qaynaq kimi. İbn Məhəmməd əl-Kəşaninin memuar səciyyəli «Fütur zaman əs-südur və südur zaman əl-fütur» («Vəzirlərin tənəzzül dövrü və tənəzzül dövrünün vəzirləri») əsəri. Zakir əd-Din Nişəpurinin «Səlcuqnamə»si. Əli Ravəndinin «Rahət üs- südur və ayət üs-sürur» («Qəlbləri sakitləşdirən və sevincdən xəbər verən») əsəri. İbn İsfəndiyarın «Tarix-i Təbəristan» əsəri 1216-cı ilədək Azərbaycan Atabəyləri dövlətinin tarixinə aid mənbə kimi. Ata Malik Cüveyninin «Tarix-i Cahanquşay» əsərinin Azərbaycanın son Atabəyləri – Özbək və onun varislərinin dövrünə aid mənbə kimi əhəmiyyəti.

Zəkəriyyə əl-Qəzvininin «Ölkələr abidələri və Allah bəndələri haqqında xəbərlər» adlı coğrafi əsəri. Həmdullah Qəzvininin «Nüzhətül qülub» («Ürəklərin əyləncəsi») əsəri monqol dövrü tarixinə aid mənbə kimi. H.Qəzvininin «Tarix-e qozide» əsəri.

Fəzlullah Rəşidəddinin «Came-ət təvarix» əsəri. Əsərin strukturu və tərkibi. F.Rəşidəddinin yazışmaları tarixi qaynaq kimi. Onların nəşri. Epistolyar irsin öyrənilməsi problemləri.

Əbu bəkr əl Qütbi əl-Əhərinin «Tarix-e Şeyx Üveys» əsəri. Məhəmməd ibn Hinduşah Naxçivani və onun «Dəstur əl-katib fi təyin əl-məratib» («Vəsifələri müəyyən edərkən mirzə üçün göstəriş») əsəri.

Hafiz Əbru və onun «Zeyl-i cami ət-təvarix-i Rəşidi» əsəri. Əsərin Teymurilər dövrünü öyrənmək üçün əhəmiyyəti. Hafiz Əbrunun «Zübdət ət-təvarix» əsəri. Əsərin strukturu və məzmunu. Əbubəkr ət-Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsəri. Əsərin meydana çıxdığı tarixi şərait, yazılması səbəbləri.

Fəzlullah ibn Ruzbixanın «Tarix-i alam arayi Əmini» əsəri Sultan Yaqub dövrünə həsr olunmuş yeganə mənbə kimi. Nizaməddin Şaminin «Zəfərnamə» əsəri.

Farsdilli mənbələrdəki ümumi cəhətlər və onların bir-birinə təsiri məsələləri.

**Ərəbdilli mənbələr.** XII əsr müəllifi Əbü-l Fərəc əbd ər-Rəhman ibn əl-Cəuzinin «Hökmdarların və xalqların tarixinə dair müntəzəm külliyyat» əsəri. Şəmsəddin Sibt ibn əl-Cəuzinin «Məşhur adamların salnaməsində zamanın güzgüsü» əsəri ilk mənbə kimi. Sədrəddin Əli əl-Hüseyninin «Əxbar əd- dövlət əs-Səlcuqiyyə» əsəri.

İbn əl-Əsirin «Əl-kamil fi-t-tarix» əsəri monqol dövrü tarixinə aid qiymətli mənbə kimi. Yaqut əl-Həməvinin coğrafi əsəri. Əbdürrəşid əl-Bakuvinin əsəri. Əsərin mənbələri və kompilyativ xarakteri.

**Avropa mənbələri.** Vilhelm Rubruk. Marko Polo və onun «Səyahətnamə»sində Azərbaycan haqqında məlumatlar. İohan de Qalonifontibusun Azərbaycan haqqında məlumatları. Klavixonun qeydləri. Hans Şiltbergerin «1394-cü ildən 1427-ci ilədək Avropa, Asiya və Afrikaya səyahət» adlı səyahətnaməsi. Afanasi Nikitinin «Üç dəniz arxasına səyahət»əsəri. Katerino Zenonun məktubları və səyahətnaməsi. Venesiya diplomatı İosafat Barbaronun «Tanaya və İrana səyahət» əsəri. Ambrocco Kontarininin gündəliyi. Anciolellonun «Uzun Həsənin həyatı və qələbələri haqqında qısa hekayət» adlı səyahətnaməsi. Covanni Darionun məktubları və s.

**Səfəvilər dövrünə aid mənbələr (XVI – XYIII əsrlər)**

Səfəvilər dövlətinin yaranması və inkişafi dövrünə aid mənbələr və onların xüsusiyyətləri. Qanunvericilik sənədləri.

**Farsdilli narrativ mənbələr.** Sədrəddin Soltan İbrahim əl-Əmininin əsəri, onun əsas əlyazmaları. Xondəmirin «Həbib əs-səyyar» əsəri. «Tarix-i şah İsmayıl-i Səfəvi» əsəri. «Təzkirey-i şah Təhmasib» əsəri.

Zeynalabdin Əli Əbdibəyin «Təkmülatül-əxbar» adlı tarixi xronikası. Hürşah Bürhanın «Tarix-i elçi-i Nizamşah» əsəri və onun əlyazmaları.Əsərin məzmunu.

Budaq Qəzvininin «Cəvahir əl-əxbar», Qazi Əhməd Qaffarinin «Tarix-i cahan-ara» əsərləri ümumi tarix tipli abidələr kimi.

Həsən bəy Rumlunun çoxcildlik «Əhsən ət-təvarix» əsəri qiymətli mənbə kimi. Qazi Mir Əhməd Quminin «Xülasət ət-təvarix»i.

İskəndər bəy Münşinin «Tarix-i aləm arayi Abbasi» («Abbasın dünyanı bəzəyən tarixi») əsəri Səfəvilər dövrü üçün əvəzedilməz mənbə kimi.

**Türk dilli mənbələr.** Türk tarixi, coğrafi əsərləri ilk mənbə kimi. Məhəmməd Rəşidin «Tarixi Rəşidi»əsəri. Küçük Çələbizadənin «Tarix-i Çələbizadə» əsərində XVIII əsr Azərbaycanı haqqında məlumatlar.

İbrahim Peçəvinin «Tarix» əsəri. Mustafa Selanikin «Tarix-i Selanik» əsəri. Mehmed Solaqzadənin «Tarix» əsəri. Övliya Çələbinin «Səyahətnamə»si.

Mehmed Qüdsi Ramazanzadənin «Mirat-i kainat» («Dünyanın güzgüsü») əsəri. Xazarfenin «Tənqih ət-təvarix» əsərində Azərbaycana, xüsusilə Şəmşəddil və Qazaxın, Gəncənin türklər tərəfindən tutulmasına aid məlumatlar.

**Osmanlı dəftərləri.** Dəftərlər kargüzarlıq sənədlərinin bir növü kimi. Onların iki əsas qrupu. I qrupa daxil olan dəftərlər: nameyi-humayun, mühimə və küyudat dəftərləri. II qrup dəftərlərinin iki növü: dəftəri müfəssəl və dəftəri icmal.

Naxçıvan sancağının (əyalətinin) 1727-ci il müfəssəl dəftəri. Gəncə-Qarabağ əyalətinin 1728-ci il müfəssəl dəftəri. Osmanlı dəftərlərinin mənbə kimi öyrənilməsi prinsipləri.

**Avropa və rus diplomatlarının, elçilərinin və səyyahlarının səyahətnamələri və qeydləri.** K.Laskarinin, V.Alessandrinin hesabatları. Minadoinin əsəri. Antoni Cenkinsonun səyahətnaməsi. Stefan Kakaş və Georq Tektanderin xatirələri.

Oruc bəy Bayatın səyahətnaməsi. Nəşrləri, strukturu, məzmunu.

Adam Oleari, Yan Streys və b. səyahətnamələri. Rus elçilərinin əsərləri, yazıları və qeydləri.

**XVIII əsr mənbələri. Qanunvericilik aktları.** Xanlıqlar dövrünün qanunvericilik sənədləri və onların məzmunu. Quba

xanlarının fərmanları. Xarici siyasət aktları. 1783-cü il Georgiyevsk müqaviləsi.

**Narrativ (nəqli) mənbələr.** XVIII əsr – XIX əsrin əvvəllərində xanlıqların tarixinə aid yerli mənbələr. Azərbaycan xronistlərinin və tarixçilərinin əsərləri. XVIII əsr «Car salnaməsi». Ə.Dunbulinin əsəri.

**İqtisadi-coğrafi təsvirlər.** XVIII əsr Avropa və rus müəlliflərinin iqtisadi-coğrafi təsvirləri. Y. Reyneqsin «Qafqazın və orada məskunlaşan bütün müxtəlif xalqların tarixi, topoqrafik və fiziki cəhətdən təsviri» adlı əsəri. S.Q.Qmelinin səyahətnaməsi. P.Q.Butkovun «1722-ci ildən 1803-cü ilədək Qafqazın yeni tarixinə aid materiallar» əsəri.

**Ədəbi əsərlər ilk mənbə kimi.** XVIII əsrə aid ədəbi əsərlər və onların xüsusiyyətləri. Şakir Şirvani, Arif Təbrizi və Arif Şirvaninin şerlərində Azərbaycan həyatının işıqlandırılması. Xəstə Qasımın şerləri. Molla Vəli Vidadı və Molla Pənah Vaqifin yaradıçılığı tarixi mənbə kimi [1,4,6,14,15,17,18,19, 20, 21, 22, 27, 28, 36, 37].

## 11. XIX-XX ƏSR AZƏRBAYCAN TARİXİNƏ AİD MƏNBƏLƏR

**Qanunvericilik aktları.** Azərbaycan Rusiya tərəfindən işğal edildiyi dövrdə və işğaldan sonra burada fəaliyyət göstərən normativ aktlar. Komendant idarəçiliyinin ləğvindən sonra ümumrus qanunvericiliyinin tətbiqi. Müstəmləkələrə münasibətdə 3 qrup qanunların ayrılması. «Ucqarlar» üçün məhdudiyyətlər və «güzəştlər». Qanunvericilik aktlarının növ müxtəlifliyi.

Xarıcı siyasət aktları və onların növləri.

Qanunvericilik sənədlərinin formalaşmasının əsas mərhələləri.

Qanunvericilik sənədlərinin əsas nəşrləri («Rusiya imperiyası qanunlarının tam külliyyatı» (PSZ), «Qanunlar külliyyatı» (Svod zakonov...), «Qanunlar və sərəncamlar külliyyatı» (Sobraniye uzakoneniy...) və s.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (AKAK). Onun yaradılması məqsədləri, tərtibi prinsipləri, strukturu, tərkibi və nəşri. Sənədlərin təsnifatı.

«XIX əsrin 20-60-cı illərində Rus çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti» adlı külliyyat, onun sənədləri.

Xarici siyasət aktları tarixi mənbə kimi. Azərbaycanla bağlı xarici siyasət aktlarının nəşr olunduğu külliyyatlar.

Daxili siyasət aktları. Onların mənbə kimi təhlil və tənqid edilməsi üsulları.

**Kargüzarlıq sənədləri. Dövlət idarələrinin sənədləri.** Əyalətin komendant idarəçiliyi dövrünə aid sənədlər. Komendant idarəçiliyi materiallarının təsnifatı.

Qafqazda Baş komandanlığın, Baş işlər Müdirliyinin, Qafqaz canişinliyinin, Tiflis, Şamaxı, İrəvan, Bakı, Yelizavetpol qubernatorlarının, Bakı Bələdiyyə rəisinin hesabatları və s.

**Kapitalist müəssisələrinin sənədləri.** Səhmdar və ticarət şirkətlərinin, sığorta, bank təşkilatlarının sənədləri.

**Siyasi partiyaların və ictimai təşkilatların sənədləri.** Azərbaycanda ictimai təşkilatların və siyasi partiyaların yaranması. Onların sənədlərinin əsas növləri: nizamnamələr, proqramlar, qərar və qətnamələr, hesabatlar,müraciətlər, yazışmalar və s.

**Tarixi, ədəbi və publisistik əsərlər.** A.Bakıxanovun «Gülüstan-i İrəm» əsəri Azərbaycan tarix elminin və tarixşünaslığının əsasını qoyan abidə kimi. Əsərin tarixi mənbə kimi öyrənilməsi.

Mirzə Adıgözəlbəyin, Mirzə Camal Çavanşirin, Əhməd bəy Cavanşirin və b. xronist tarixçilərin Qarabağ tarixinə həsr olunmuş əsərləri. İskəndər bəy Hacınskinin «Qubalı Fətəli xanın həyatı» əsəri. Kərim Ağa Fatehin «Şəki xanlarının müxtəsər tarixi». Mirzə Əhməd Xudaverdi oğlunun «Talış xanlığının xronikası». Şeyx İbrahim Nasihin «Gəncənin tarixi» əsəri və b.

Mirzə Kazımbəyin Şərq xalqlarının tarixi sahəsindəki araşdırmaları tarixi mənbə kimi.

**Rus müəlliflərinin əsərləri.** A.S.Qriboyedovun «Ermənilərin İrandan bizim əyalətlərə köçürülməsi haqqında qeydləri».

S.Qlinkanın əsəri. N.Dubrovinin və V.Pottonun əsərləri. N.Şavrovun, V.Veliçkonun, V.Mayevskinin əsərləri «erməni məsələsi»nin tarixini öyrənmək üçün qiymətli mənbələr kimi.

**Ədəbi, publisistik abidələr.** Ədəbi və publisistik əsərlərin tarixi mənbə kimi öyrənilməsi prinsipləri. Azərbaycanın Rusiya tərəfindən işğalı Azərbaycan şairləri-nin əsərlərində: Aşıq Həsənin, Əbdürrəhman ağa Dilbazoğlunun, Seyid Əbülqasim Nəbatinin, Baba bəy Şakirin şerləri, Qumrinin mərsiyələri.

Qasım bəy Zakirin və Seyid Əzim Şirvaninin yaradıcılığında XIX əsr Azərbay-can həyatının təsviri. M.F.Axundovun əsərləri tarixi mənbə kimi. C.Məmmədquluzadənin, M.Ə.Sabirin və b. əsərlərində Azərbaycanın tarixi reallıqlarının inikası.

H.B.Zərdabinin, Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, Ə.Topçubaşovun, M.Şahtaxtinskinin, M.Ə.Rəsulzadənin, C.Hacıbəyovun, Ü.Hacıbəyovun və b. publisistikası tarixi mənbə kimi.

**Memuar mənbələri.** Memuar mənbələrinin öyrənilməsinin əsas vəzifələri və üsulları. Epistolyar mənbələrin əsas növləri.

A.Bakıxanovun «Yazılar, qeydlər, məktubları». Əliağa Şıxlinskinin «Mənim xatirələrim» adlı memuarları. Milli-azadlıq hərəkatının iştirakçılarının xatirələri, yazışmaları. Onların tarixi mənbə kimi əhəmiyyəti [7,11,12,13, 23, 24, 26, 30, 31, 32, 34, 35, 41].

## 12. XIX-XX ƏSRIN DÖVRÜ MƏTBUATI MƏNBƏ KIMI

**Dövri mətbuat.** Dövri mətbuatın tarixi mənbə kimi ümumi xarakteristikası. Azərbaycanda mətbuatın yaranması və onun xüsusiyyətləri. Rus çarizminin mətbuat və senzura sahəsindəki siyasəti. Cənubi Azərbaycan mətbuatının yaranması və keçdiyi mərhələlər. Mətbuatin növləri, janrları, strukturu. Mənbə kimi təhlili üsulları. Azərbaycan milli mətbuatının yaranması. «Əkinçi» qəzeti, onun strukturu, tərkibi, materialları. Mənbə kimi öyrənilməsi.

Hökumət nəşrləri. Burjua, liberal və demokratik mətbuat. «Kaspi» qəzeti və onun Azərbaycanın ictimai-siyasi və mədəniyyət tarixini öyrənmək üçün əhəmiyyəti. «Şərqi-rus», «Nicat»,«Həyat», «İrşad», «Tərəqqi», «İqbal», «Açıq söz» və s.
Fəhlə mətbuatı: «Bakinski raboçi», «Yoldaş», «Bizim həyat», «Fəhlə deputatları Sovetinin xəbərləri».
Jurnallar. «Molla Nəsrəddin» və onun Azərbaycan demokratik hərəkatında rolu. «Füyuzat» jurnalı.
Sahə mətbuatı: «Neft işi», «Bakı birja komitəsinin icmalları», «Qafqaz dağ idarəsinin icmalları», «Baki neft sənayesinin icmalları» və s.

Məlumat xarakterli nəşrlər: Qafqaz təqvimləri, Bakı təqvim-ünvanı. [11;49;50;51;52]

## 13. XIX-XX ƏSRIN ƏVVƏLLƏRININ STATISTIKASI AZƏRBAYCAN TARIXINƏ DAIR MƏNBƏ KIMI

**Statistik mənbələr**

XIX əsr – XX əsrin əvvəllərində Rusiyada statistik uçot və statistika elminin vəziyyəti. Statistik məlumatların mənbəşünaslıq baxımından öyrənilməsinin və işlənməsi metodikasının əsas prinsipləri.

**Statistik cədvəllər və onların növləri.** Statistik cədvəllərin tərtibi prinsipləri. Statistikada əsas kəmiyyətlər və onların əhəmiyyəti.

İqtisadi-coğrafi və statistik təsvirlər. Azərbaycan Rusiyanın tərkibinə qatıldıqdan sonra diyarın təbii, iqtisadi, demoqrafik ehtiyatlarının öyrənilməsinə başlanması. Kameral təsvirlər. «Şəki əyalətinin təsviri», «Qarabağ əyalətinin təsviri», «Naxçıvan əyalətinin statistik təsviri», «Qafqaz ipəkçiliyinin təsviri» və s.

Qubernator hesabatlarına statistik əlavələr.

«Rusiyanın Qafqaz arxasındakı əyalətlərinin statistik, etnoqrafik, topoqrafik və maliyyə baxımından təsviri» külliyyatı.

**Senator təftişləri.** Senator təftişi fövqəladə təftiş forması kimi. Kutaysov və Meçnikovun təftişinin materialları. Senator

Kuzminskinin təftişi. Keçirilməsi səbəbləri, məqsədləri, strukturu, məzmunu.

**Mərkəzi Statistika Komitəsinin (MSK) statistikası.** MSK-nın cari statistikası, onun əsas istiqamətləri və dövri nəşrləri.

**İdarə statistikası.** Materialların toplanmasının əsas istiqamətləri, metodları və nəşr tipləri.

Fabrik müfəttişlərinin hesabatları və onların nəşri. 1908-ci il sənaye siyahıyaalınması. Bakı neft sənayeçiləri qurultayları Şurasının idarə statistikası, onun nəşrləri. Bakı şəhər upravasının statistikası.

**Aqrar statistika.** Mərkəzi Statistika Komitəsinin statistikası. 1916-cı və 1917-ci illərin kənd təsərrüfatı siyahıyaalmaları.

**Demoqrafik statistika. «**Qafqaz ölkəsi üzrə Rusiya imperiyası yaşayış yerlərinin siyahıları».

I Ümumrusiya əhali siyahıyaalınması. Bakı və Yelizavetpol quberniyaları üzrə nəşrlər.

1903-cü il Bakı şəhər əhalisinin siyahıyaalınması, onun keçirilməsi məqsədləri. 1913-cü il Bakı şəhər əhalisinin siyahıyaalınması. Onun proqramı, məlumatların nəşri. [35;36;37]

## 14. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNƏ AİD MƏNBƏLƏR (1918-1920-Cİ İLLƏR)

**AXC dövrünün qanunvericilik sənədləri.** Azərbaycan Milli Şurasının yaradılması. 28 may 1918-ci il İstiqlal bəyannaməsi. Milli Şuranın 17 iyun 1918-ci il qətnamələri. Azərbaycan hökumətinin 24 iyun tarixli qərarı. Milli Şuranın «Azərbaycan Parlamentinin yaradılması haqqında qanun»u. AXC Parlamentinin qəbul etdiyi qanunlar. AXC-nın qanunvericilik aktlarının nəşrləri. «AXC hökuməti qanunlarının və sərəncamlarının toplusu». Qanunvericilik sənədlərinin mənbəşünaslıq tənqidi və təhlili üsulları.

**Kargüzarlıq sənədləri.** Azərbaycan Respublikası Milli Şurasının, Parlamentinin, Nazirlər Kabinetinin sənədləri və materialları. Parlamentin iclaslarının protokolları.

Fövqəladə Təhqiqat komissiyasının sənədləri. Kargüzarlıq sənədlərinin təhlili üsulları.

**Siyasi partiyaların və ictimai təşkilatların sənədləri.**

**Dövri mətbuat.** Onun növləri və təsnifatı. AXC dövrünün hökumət nəşrləri. Bolşeviklərin mətbuat orqanları. Digər yonlü mətbuat.

**Şəxsi mənşəli sənədlər.** Onların növləri: memuarlar, gündəliklər, yazışmalar və s. Ə.Topçubaşovun «İstanbulda diplomatik söhbətlər», «Paris məktubları» adlı yazıları. M.Ə.Rəsulzadənin, M.B.Məmmədzadənin əsərləri memuar tipli abidələr kimi. Ə.Şıxlinskinin «Mənim xatirələrim» adlı memuarı [11, 12, 23, 24, 31, 32, 34, 41].

## 15. MÜASİR DÖVRÜN MƏNBƏLƏRİ (1920-2000-Cİ İLLƏR)

**Qanunvericilik sənədləri.** Sov.İKP və AKP-nin sənədləri. Qanunverici və icraedici orqanların aktları. Sovet dövrü qanunvericiliyinin xarakteri. Qanunvericilik aktlarının növləri: dekretlər, konstitusiyalar, qanunlar, fərmanlar və s.

«Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı». Onun məzmunu və tarixi mənbə kimi əhəmiyyəti. Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası. Onun strukturu və məzmunu, mənbə kimi təhlili. 2002, 2009 və 2016-cı illərdə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər.

Azərbaycan Respublikası Milli Məclisinin aktları: Konstitusiya qanunları, qanunlar və qərarlar. Qanunvericilik sənədlərinin işlənməsi qaydası və mərhələləri. Əsas nəşrləri. 1997-ci ildən nəşr olunan «Azərbaycan Respublikasının qanunvericilik toplusu». «Azərbaycan Respublikası Milli Məclisinin məlumatı». Burada nəşr olunan qərarlar, bəyanatlar, qanunvericilik işləri planları.

Prezident fərmanları və sərəncamları. Digər qanunvericilik aktları.

Xarıcı siyasət aktları. Onların öyrənilməsi prinsipləri və mənbəşünaslıq təhlili üsulları.

**Statistik mənbələr.** 90-cı illərin statistik mənbələrinin xüsusiyyətləri və xarakteristikası. Cari statistika, onun növləri. Statistik məlumatların toplanması üsulları.

**Demoqrafik statistika.** Qondarma «Qarabağ problemi» ilə əlaqədar Azərbaycan əhalisinin sayinda və məskunlaşmasında baş vermiş dəyişikliklər. Qaçqınlar Komitəsinin yaradılması və onun statistik məlumatları.

1999-cu il əhali siyahıyaalınması. 2009-cu il əhali siyahıyaalınmasının materialları. Cari demoqrafik statistika.

**İctimai təşkilatların və siyasi partiyaların sənədləri**

90-cı illərin əvvəllərində bir sıra ictimai-siyasi təşkilatların və partiyaların yaranması. 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının buraxılması. Təkpartiyalı sistemin ləğvi. 1992-ci il iyunun 3-də «Siyasi partiyalar haqqında qanun»un qəbul olunması. Çox partiyalı sistemin yaranması.

Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsi. YAP qurultaylarının qərarları. Digər partiyaların proqramları və nizamnamələri, sənədləri tarixi mənbə kimi.

Sovet dövri mətbuatı.

**Dövri mətbuat.** 90-cı illərin əvvəllərində Sov.İKP-nın buraxılmasından sonra təkpartiyalı mətbuatın ləğvi və müxtəlif yönlü mətbu orqanlarının meydana çıxması və onun təsnifatı. Əsas hökumət nəşrləri: «Xalq» qəseti, «Azərbaycan» qəzeti və b.

1998-ci ildə mətbuatda senzuranın ləqvi. Müasir mətbuatın öyrənilməsinin mənbəşünaslıq prinsipləri və üsulları.

**Kargüzarlıq sənədləri.** Materialların əsas qrupları. Sənədlərin ilkin və törəmə sənədlərə bölünməsi. Mənbəşünaslıq təhlili problemləri.

**Statistik mənbələr.** Sovet dövrü statistik mənbələrinin xüsusiyyətləri və vəzifələri. Müasir dövrdə statistik uçot və siyahıyaalmalar.

**Dövri mətbuat.** Sovet dövri mətbuatının ümumi xarakteristikası. Birpartiyalı mətbuatın inkişafı. Mərkəzi mətbuat. «Pravda», «İzvestiya» və s. qəzetlər.

Müasir Azərbaycan dövri mətbuatı və onun xüsusiyyətləri. Çox partiyalı mətbuat. Mətbuatda senzuranın ləğvi. Əsas mətbu orqanları.

**Memuarlar, gündəliklər, yazışmalar.** Şəxsi mənşəli sənədlərin spesifik xüsusiyyətləri. Memuarların tarixi hadisələri öyrənmək üçün əhəmiyyəti [42, 43, 44, 45, 46, 47, 48].

**Fənnin tədris üsulları:** interaktiv mühazirələr, əyani vəsaitlərdən istifadə. Tədris prosesində tələbələrin fəal iştirakı məqsədilə mühazirə və məşğələlər zamanı diskussiya metodundan istifadə edilməsi.

**Fənnin maddi-texniki təminatı.** Bu fənnin tədrisi prosesinin təşkili üçün multimedia sistemi (elektron lövhə) və internet bağlantısı imkanları ilə təchiz olunan auditoriyanın istifadəsi nəzərdə tutulur. Bundnn əlavə tarixi sənədlərin, əsərlərin, dövri mətbuat nümunələrinin, statistik cədvəllərin, üzərində yazi olan abidələrin şəkillərinin və s. istifadəsi də həyata keçirilir.

## Tarixi tədqiqat üsulları

### I mövzu
### Tarixi tədqiqat üsulları fənninin predmet və vəzifələri

Tarixi tədqiqat üsulları fənninin predmeti tarixi inkişafın istər ayrı-ayrı dövrlərində, yaxud konkret zaman kəsiyində, istərsə də ictimai inkişafın ilk mərhələlərindən başlayaraq bu günümüzədək davam edən bəşər tarixinin elmi-obyektiv müstəvidə hansı üsul və metodlarla tədqiq olunması problemləri ilə, o cümlədən ictimai hadisələri doğuran obyektiv və subyektiv səbəblərin daxili struktur mexanizmlərini, bu səbəbləri yaradan amillərin məkan və zaman xüsusiyyətlərini öyrənir. Məsələn erkən tunc dövründə ulu əcdadlarımızın tuncu kəşf etməsi təkcə həmin dövr üçün deyil, sonrakı dövrlərdə də metallurgiyanın inkişafında misilsiz rol

oynadı, böyük önəm kəsb edən yeni xəlitənin kəşfi təbii ki, həmin ixtiraya təkan verən, onun həyata keçməsini reallaşdıran bir çox amillərlə sıx surətdə bağlı idi. Bəs hansı obyektiv amillər tuncun ixtirasına səbəb olmuşdur? Təbii ki, bu suala cavab tapmaq üçün sözün gedən dövrün məkan və zaman xüsusiyyətlərini diqqətlə nəzərdən keçirilməli, öyrənilməlidir. Məkan dedikdə təbii ki, ərazinin, daha doğrsu bu böyük kəşfin baş verdiyi ərazini, yaxud əraziləri nəzərdən keçirmək, təbii-geoloji xüsusiyyətlərinə, bu xüsusiyyətlərin erkən tunc dövründə yaşayan insanların zehni və fiziki imkanlarına, vərdiş və bacarıq potensialına nə dərəcədə uyğun olub, olmamasına xüsusi diqqət yetirmək lazımdır. Məhz bu kimi spesifik xüsusiyyətlərin öyrənilməsi sözügedən hadisənin zaman parametrlərini, qanunauyğunluqlarını kompleks şəkildə nəzərdən keçirməyə imkan verir. [6.26-28.84; 7-15; 9.12-23.56-69; 29.27-35; 36.74-89]

## II mövzu
## Tarixi tədqiqatlarda ümumelmi və xüsusi elmi metodlar

Tarixi tədqiqatlarda elmi metodlar hər bir elmdə olduğu kimi ümumelmi və xüsusi metodlardan ibarətdir. Məntiqi aksiomalar, postulatlar və qanunauyğunluqlar ixtiyari ümumelmi, o cümlədən xüsusi tarixi idrak metodlarının əsaslarının işlənilib hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Ümumelmi və fəlsəfi paradiqmalar, konsepsiyalar ümumelmi metodlarla qarşılıqlı şəkildə fəailiyyət göstərərək zaman və məkan çərçivəsində onlarla bir yerdə inkişaf və intişar edir. İctimai idrakın kamilləşdirilməsində nəsillərin əvəz olunmasına böyük önəm kəsb edir. Ümumelmi metodlar empirik (yunanca empiria tərcümə deməkdir) və nəzəri (yunanca theoreo nəzərdən keçirmək deməkdir) metodlardan ibarətdir. [7.11-13; 23.90-97.102-107; 28.35-67]

## III mövzu

## Tarixi tədqiqatlarda empirik metodlar

Empirik metodlar dedikdə: 1) Müşahidə - tədqiq edilən obyekti birbaşa müdaxilə etmədən passiv surətdə öyrənməkdən və həmin obyekt haqqında keyfiyyətli, dəyərli məlumatları toplamaqdan ibarətdi. 2) Ölçü götürmək – müşahidənin nəticələrindən bəhrələnərək kəmiyyətcə dəyərli məlumatların əldə edilməsi deməkdir. 3) Eksperiment – tədqiq edilən obyektə fəal surətdə müdaxilə edərək artıq baş vermiş dəyişikliklər və yaxud inkişaf dinamikası üzərində təcrübələr aparmaqdır. Eksperiment real və xəyali şəkildə ola bilər. Xəyali eksperimenti nəzəri model də adlandırırlar. [6.35-39,57 62,141; 7.16-23;8.13-16; 29.56-67; 36.177-181]

## IV mövzu

## Tarixi tədqiqatlarda müqayisə və əqli nəticə

Ətraf aləmdə mövcud olan nəticə və obyektləri bir-biri ilə müqayisə etmək, yaxud fərqləndirmək elə bizi əhatə edən aləmin dərk olunması üçün ən mühüm əqli-psixoloji vasitədir. Çünki, hadisə və obyektləri müqayisə etmək onları xəyalən yanaşı qoymaq, hansı xüsusiyyətlərə malik olduqlarını və bu xüsusiyyətlərdən hansıların bir-biri ilə eyni olmalarını aydınlaşdırmaq, üzə çıxarmaq deməkdir. Tarixi tədqiqat prosesində də müqayisə üsulu tədqiqatçı üçün hadisələrin inkişaf dinamikasının istiqamıt və meyarlarını müəyyən etmək, onu doğuran obyektiv və subyektiv səbəblərin mahiyyətini obyektiv surətdə araşdırmaq baxımından son dərəcə böyük əhəmiyyət kəsb edir. [9.69-77; 28.17-23; 7.66-70;29.36-67]

Fərqlilik metodu. Əgər bir –birilə tam oxşarlıq təşkil edən iki hadisədən biri baş verərsə, o birisi isə baş verməzsə, onda həmin hadisələr arasında fərq birinci hadisədəki vaqeədir, yəni hadisəinin baş verməsidir. Daha doğrusu bu iki hadisə arasındakı fərq birinci halda hadisənin baş verməsini doğuran səbəbdir. [7.68-70]

Oxşarlıq metodu. Əgər iki və daha artıq hadisə yalnız bir ümumi xüsusiyyətə malikdirsə, yaxud bir, oxşar vəziyyətdə cərəyan edirlərsə, onda həmin xüsusiyyət, yaxud həmin oxşar vəziyyəti yaradan amil həmin hadisələrin hamısı üçün səbəb sayıla bilər. [7.66-67; 8.16-20]

## V mövzu
## Tarixi tədqiqatlarda təsnifat üsulları

